**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**İQTİSADİYYAT İNSTİTUTU**

*Əlyazma hüququnda*

**FUAD ƏLİNAĞI OĞLU QƏNBƏROV**

# QLOBALLAŞMA ŞƏRAİTİNDƏ AZƏRBAYCANDA İQTİSADİ ARTIMIN TƏMİN EDİLMƏSİNİN XARİCİ İQTİSADİ AMİLLƏRİ

İxtisas: 5307.01 – İqtisadi nəzəriyyə
5310.01- Dünya iqtisadiyyatı

İqtisad elmləri doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya işinin

**AVTOREFERATI**

**Bakı-2014**

**Dissertasiya işi Azərbaycan MEA İqtisadiyyat İnstitutunda yerinə yetirilmişdir.**

**Elmi məsləhətçi:** Azərbaycan MEA-nın müxbir üzvü,
iqtisad elmləri doktoru, professor
**Ağasəlim Kərim oğlu Ələsgərov**

**Rəsmi opponentlər:** AMEA-nın həqiqi üzvü, iqtisad elmləri
doktoru, professor
**Ziyad Əliabbas oğlu Səmədzadə**

AMEA-nın müxbir üzvü,iqtisad elmləri
doktoru, professor
**Akif Fərhad oğlu Musayev**

İqtisad elmləri doktoru
**Veysəl Seyfəl oğlu Əyyubov**

**Aparıcı təşkilat:** **Azərbaycan Respublikası**
**Naxçıvan Dövlət Universiteti**

Müdafiə «_25__» «_04__» 2014-cü il saat ____da AMEA İqtisadiyyat İnstitutunda iqtisad elmləri doktoruelmi dərəcəsi almaq üçün yaradılmış B/FD.01.181 Birdəfəlik Dissertasiya şurasının iclasında olacaqdır.

Ünvan: Az1143 Bakı şəhəri, H.Cavid prospekti 31, II mərtəbə, AMEA İqtisadiyyat institutu.

Dissertasiya işi ilə AMEA-nın Mərkəzi kitabxanasında tanış olmaq olar.

Avtoreferat «___» «_______________» 2014-cü ildə göndərilmişdir.

B/FD.01.181 Dissertasiya Şurasının
elmi katibi, i.ü.f.d., dosent **G.S.Hacıyeva**

## DİSSERTASİYA İŞİNİN ÜMUMİ XARAKTERİSKASI

**Tədqiqatın aktuallığı.** XX əsrin sonu və XXI əsrin əvvəllərində dünya iqtisadiyyatının inkişafı və təsərrüfat həyatının beynəlmiləlləşməsinin ən mühüm nəticəsi qloballaşma hesab olunur. İqtisadiyyat elmində qloballaşmanın müsbət və mənfi tərəfləri ilə bağlı müxtəlif baxışlar mövcuddur. İstənilən halda, qloballaşmanın mühüm üstünlüyü onda təzahür edir ki, bu prosesin nəticəsində dövlətlər, təşkilatlar və insanlar arasında informasiya mübadiləsi sürətlənir və genişlənir. Qloballaşma prosesi insanlara müxtəlif ölkələrdəki siyasi, iqtisadi, hüquqi və sosial fərqlilikləri müqayisə etməyə və daha yaxşılarını öz cəmiyyətlərində və həyatlarında tətbiq etməyə şərait yaradır. Adətən, belə fərqlər, totalitar dövlət iqtisadiyyatından bazar prinsiplərinə əsaslanan iqtisadi sistemə keçid üçün islahatlar keçirən ölkələrdə özünü daha kəskin büruzə verir. Məhz buna görə də, son 20-25 ildə postsovet ölkələrində sosializmin yaratdığı problemlər, özəl mülkiyyətin təşəkkülü və inkişafı, həmçinin, iqtisadi artım, onun mənbələri və əsas amilləri kimi məsələlər geniş müzakirə obyektinə çevrilmişdir.

Müstəqillik əldə etdikdən sonra Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası, onun müasir dünyada, ikitərəfli və regional əməkdaşlıqda yeri, beynəlxalq təşkilatlarla əlaqələri və s. mühüm tədqiqat obyekti olmuşdur. Belə tədqiqatların aparılması, xarici şirkətlərlə bağlanmış neft müqavilələrinə əsasən xam neft və qaz hasilatının və ixracının ölkə tarixində yüksək səviyyəyə çatdığı, ölkədə yaradılan əlavə dəyərin əsas hissəsinin xarici iqtisadi əlaqələr hesabına formalaşdığı bir vaxtda daha da aktuallaşır.

Son 10 il Azərbaycan iqtisadiyyatının tarixindəiqtisadi artım templərinə görə ən uğurlu illər olmuşdur. Bu dövrdə respublikamız ÜDM-in artım sürətinə görə dünya ölkələri arasında lider olmuş, xarici investisiya qoyuluşu, sənaye məhsullarının həcmi və əhalinin real gəlirlərinin artması və digər iqtisadi göstəricilərə görə bir çox ölkələri qabaqlamışdır. 2000-2012-ci illərdə ölkəmizdə ÜDM-in orta illik artım tempi 13.2 % təşkil etmiş, adambaşına düşən ÜDM isə 2000-ci ildəki 593.2 ABŞ dollarından 2012-ci ildə 7490.5 ABŞ dollarına çatmış, yoxsulluq səviyyəsi 2001-ci ildəki 49%-dən 2012-ci ildə 6%-ə düşmüşdür. 2008-ci ildə başlayan və hazırda davam edən qlobal iqtisadi böhran Azərbaycan iqtisadiyyatına əsaslı təsir etməyib. Son dövrlər müsbət dəyişikliklərdən ən əsası qeyri-neft ÜDM-in daha sürətlə artmasıdır. Belə ki, son 8 ildə

qeyri-neft ÜDM-in orta illik artım tempi 9.65% təşkil edib. İqtisadi təhlillər göstərir ki, Azərbaycanda iqtisadiyyatın bütün sahələrində baş vermiş yüksəliş birbaşa və ya dolayı yolla xarici iqtisadi sektorla bağlıdır.

Azərbayacan Respublikasının Prezidenti cənab İ. Əliyevin imzaladığı “Azərbaycan:2020 – gələcəyə baxış” konsepsiyasında iqtisadiyyatın və xarici ticarətin diversifikasiyası, dövrün sonuna qədər ölkədə adambaşına düşən ÜDM-in 2 dəfə artırılaraq 13000 ABŞ dollarına və qeyri neft sektoru üzrə adambaşına düşən ixracın 1000 dollara çatdırılması hədəfi qoyulmuşdur. Bu dövrün əsas məqsədi - milli iqtisadiyyatın rəqabətqabiliyyətinin yüksəldilməsinə və dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyasına nail olmaqla, sosial-iqtisadi inkişafın dayanıqlığı və davamlılığını təmin etməkdən ibarətdir. Məhz iqtisadi artım ölkədə dinamik sosial-iqtisadi inkişafa və iqtisadiyyatın keyfiyyətcə yeni səviyyəyə qaldırılmasına, sosial problemlərin həlli, o cümlədən yoxsulluğun və işsizliyin azaldılması üçün möhkəm zəmin yarada bilər. Konsepsiyada ixrac yönümlü iqtisadi inkişaf modelinin əsas götürülməsi uzunmüddətli perspektivdə iqtisadi artımda xarici ticarət amilinin mühüm rola malik olacağını göstərir.Bunları nəzərə alaraq, xarici ticarətdə rəqabətqabiliyyətliyi yüksəltmək və daha çox səmərə əldə etmək üçün Azərbaycan öz iqtisadiyyatını beynəlxalq əmək bölgüsünün tələblərinə uyğun diversifikasiya etməli və iqtisadiyyatda mütərəqqi struktur dəyişiklikləri aparmalıdır. Belə dəyişikliklər elmi cəhətdən əsaslandırılmış tədqiqat və təhlillərin nəticələrinə əsaslanmalıdır. Başqa sözlə desək, ölkədə yeni iş yerlərinin yaradılması və gəlirlərin artırılması, ixracın genişləndirilməsi və diversifikasiyası, həmçinin xarici investisiyaların cəlb edilməsi məqsədilə iqtisadiyyatın dünya bazarlarında rəqabətqabiliyyətli və potensial müqayisəli üstünlüyə malik olan qeyri-neft sektorlarını müəyyən etmək vacibdir. Son illərdə dünya bazarlarında rəqabətin güclənməsi qeyd olunan məsələlərin aktuallığını və əhəmiyyətini daha da artırır. Azərbaycan Respublikası iqtisadiyyatında xarici iqtisadi sektorun, xüsusilə xarici ticarətin rolunun yüksək olması, həmçinin göstərilən amillərin bir sıra iqtisadi, siyasi və konyunktur şəraitdə mümkün neqativ təsirlərinin azaldılması zərurəti iqtisadi artımın xarici iqtisadi amillərinin tədqiqinin vacibliyini və aktuallığını müəyyən edir.

Bütün bunlar qloballaşma şəraitindəiqtisadi artımın xarici və daxili amillərinin qarşılıqlı əlaqələrinin öyrənilməsi və dayanıqlı iqtisadi inkişafın təmin edilməsi üçün bu amillərin nəzəri və metodoloji əsaslandırılmasına yönəldilmiş tədqiqatın aktuallığını təsdiq edir.

**Problemin öyrənilmə səviyyəsi.**İqtisadi nəzəriyyə elm kimi formalaşmağa başlayan dövrdən iqtisadiyyatın inkişafında xarici iqtisadi amillərin roluna alimlər tərəfindən xüsusi diqqət verilmişdir. İqtisadi ədəbiyyatlarda milli iqtisadi inkişaf, iqtisadi artım, onu müəyyən edən amillər, iqtisadi artımın milli iqtisadi maraqların qorunması ilə qarşılıqlı əlaqəsi, iqtisadiyyatda ixrac-idxal əməliyyatlarının əhəmiyyəti vəbir sıra digər məsələlər ətraflı təhlil edilmişdir. İqtisadi artım, beynəlxalq iqtisadi münasibətlər, habelə Azərbaycanın xarici iqtisadi əlaqələrinin inkişaf problemləri ölkəmizin iqtisadçı alimlərinin də əsas tədqiqat obyektlərindən biridir. Müasir dövrdə iqtisadi artımın amilləri, dünya iqtisadiyyatında baş verən proseslər və Azərbaycanın xarici iqtisadi əlaqələrinin formaları və problemləri Azərbaycanlı iqtisadçı alimlər tərəfindən, o cümlədən A.A.Nadirov, Z.Ə.Səmədzadə, A.K.Ələsgərov, A.F.Musayev, Ş.M.Muradov, İ.H.Alıyev, Ş.H.Hacıyev, Ə.B.Bayramov, A.A.Şəkərəliyev, M.X.Meybullayev, T.S.Vəliyev, Ə.P.Babayev, F.F.Mustafayev, H.B.Rüstəmbəyov, Z.F.Məmmədov, D.Ə.Vəliyev, İ.A.Kərimli, Ş.S.Qafarov,V.S. Əyyubov, R.B.Quliyev və başqaları tərəfindən tədqiq edilmışdır.

Qərb iqtisadçı alimlərindən iqtisadi artımın nəzəri təhlilinin tədqiqinə, onun amillərinin təsnifatına və qarşılıqlı əlaqə mexanizminə M.Alle, M.Bruno, D.Helbrayt, Y.Domar, P.Duqlas, E.Denison, U.İsterli, N.Kaldor, Ç.Kobb, R.Lukas, U.Lyuis, Q.Menkyu, C.Robinson, U.Rostou, P.Samuelson, R.Solou, C.Stiqler, C.Stiqlits, Y.Tinbergen, O.Uilyamson, C.Forrester, R. Qrinberq, R.Friş, F.Hayek, E.Hansen, R.Harrod, D.Hiks, H.Çeneri, T.Şults, Y.Şumpeter və başqaları tərəfindən təklif edilmiş neokeynsçi və neoklassik artım modelləri böyük töhfələr vermişdir. Bu iqtisadçılar iqtisadi dinamikanın bir çox amil və parametrlərini tədqiq etmişlər.

Yaxın xarici ölkələrin iqtisadçı alimləriiqtisadi artım və xarici iqtisadi əlaqələr sahəsində nəzəri-metodoloji və praktiki cəhətdən tədqiqatlar aparmış, elmi müddəalar irəli sürmüşlər. Bunlardan L.Abalkin, L.Ançişkin, A.Arxipov, A.Belousov, B.Bolşakov, A.Buzqalin, Y.Qaydar, S.Qlazyev, A.Qranberq, A.Dobrınin, A.İllarionov, D.Lvov, S.Menşikov, Y.Olseviç, V.Polteroviç, V.Popov, M.Pivovarova, V.Sençaqov, Y.Slutski, V.Sokolov, S.Strumilin, M.Uzyakov, S.Çernikova, S.Şatalin, Y.Şişkov, Y.Yakovets və başqalarını göstərmək olar.

İqtisadi artım və ona təsir edən müxtəlif amillərin roluna dair nüfuzlu iqtisadçı alimlərin çoxsaylı əsərlərinin olmasına baxmayaraq, iqtisadi artım nəzəriyyəsinin bəzi aspektlərində, xüsusilə dayanıqlı artımın qanunauyğunluqlarının və milli iqtisadiyyatın davamlı inkişafının təmin edilməsi üçün prioritet amillərin müəyyən edilməsi sahəsində ciddi nəzəri-metodoloji və praktiki tədqiqatların aparılmasına ehtiyac vardır.

Yuxarıda adları çəkilən Azərbaycan iqtisadçılarının tədqiqatlarının əhəmiyyətini azaltmadan qeyd etmək lazımdır ki, Azərbaycanın xarici iqtisadi əlaqələrinin müxtəlif istiqamətlərinin ayrı-ayrılıqda tədqiq olunmasına baxmayaraq, xarici iqtisadi əlaqələrin müxtəlif formalarının iqtisadi artımla qarşılıqlı əlaqəsi kompleks tədqiq olunmamışdır.

Tədqiqat işi iqtisadi artımın amillərinə, xüsusiyyətlərinə və dayanıqlığına, onun idxal-ixrac əməliyyatları ilə qarşılıqlı əlaqəsinə dair yerli və xarici alimlərin müxtəlif nəzəriyyə və konsepsiyalarınauyğun aparılıb. Dissertasiyada iqtisadi artım nəzəriyyəsinin müxtəlif «bloklar»ı formalaşdırılıb və təsnifləşdirilib, göstərilən aspektlər üzrə iqtisadi dinamikanın qanunauyğunluqları aşkar edilib, iqtisadi artımın amilləri, şərtləri, prinsipləri müəyyən edilib vəiqtisadi artıma təsir edən xarici iqtisadi amillər aşkar edilib.

Göstərilən bu məsələlər dissertasiya işinin mövzusunun seçilməsini şərtləndirmiş və tədqiqatın məqsədini, vəzifələrini, obyekt və predmetini müəyyən etmişdir.

**Tədqiqat işinin məqsədivə vəzifələri**. Tədqiqatın əsas məqsədi qloballaşma şəraitində Azərbaycanda iqtisadi artıma xarici və daxili amillərin təsirinin aşkar edilməsindən və bunun əsasında Azərbaycanda dayanıqlı iqtisadi artımın təmin edilməsi üçün nəzəri-metodoloji yanaşmanın hazırlanmasından və xarici iqtisadi əlaqələrin səmərəliliyinin artırılması üçün elmi-praktiki təkliflərin verilməsindən ibarətdir. Qarşıya qoyulmuş məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin həyata keçirilməsi müəyyənləşdirilmişdir:

• iqtisadi artım haqqında elmi konsepsiyaların ümumiləşdirilməsi, sistemləşdirilməsi, həmçinin iqtisadi artıma təsir edən amillərin müəyyən edilməsi;

• Azərbaycan iqtisadiyyatında iqtisadi artım amillərinin dinamikasının təhlil edilməsi və iqtisadi artımın Azərbaycan modelinin xüsusiyyətlərinin aşkar edilməsi;

• dünya iqtisadiyyatında inkişaf meyllərinin aşkar edilməsi və Azərbaycanın dünya iqtisadiyyatında rolunun qiymətləndirilməsi;

• Azərbaycanda iqtisadi artıma təsir göstərən xarici iqtisadi meyllərin müəyyən edilməsi, onların dayanıqlığının qiymətləndirilməsi;

• dünya təsərrüfat əlaqələri sistemində Azərbaycanın xarici ticarət sektorunun müasir vəziyyətinin təhlil edilməsi;

• iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin təzahür formaları və iqtisadiyyatın rəqabətqabiliyyətliliyinə təsir edən amillərin tədqiqi;

• milli iqtisadi təhlükəsizliyin təmin edilməsi şəraitində dünya ölkələrində iqtisadiyyatın açıqlığının iqtisadi artıma təsirinin öyrənilməsi;

• müqayisəli üstünlük nəzəriyyələri və rəqabət gücü göstəriciləri əsasında Azərbaycanda ixrac potensialı və imkanlarının aşkar edilməsi;

• ÜTT-yə üzvlüyün Azərbaycan iqtisadiyyatının rəqabətqabiliyyətinin yüksəldilməsi və struktur dəyişikliklərinə təsirinin tədqiq olunması;

• Azərbaycanda iqtisadi artımın təmin edilməsində xarici investisiyaların rolunun qiymətləndirilməsi;

• İqtisadi təhlükəsizlik baxımından xarici borcların qiymətləndirilməsi;

• Tədiyyə balansının göstəriciləri əsasında Azərbaycanın xarici iqtisadi əlaqələrinin təhlil olunması və qiymətləndirilməsi;

• Azərbaycanın valyuta-məzənnə siyasətinin optimallaşdırılması istiqamətlərinin müəyyən edilməsi;

•Neft ixrac edən ölkələrdə iqtisadi artım modellərinin əsas xüsusiyyətlərinin müəyyən edilməsi və Azərbaycanda strateji iqtisadi artım modelinin hazırlanması;

• Azərbaycanda xarici iqtisadi əlaqələrin modernləşdirilməsi yolu ilə iqtisadi artımın intensivləşdirilməsinə yönəldilmiş kompleks tədbirlərin işlənib hazırlanması.

**Tədqiqatın obyektini** milli iqtisadiyyatın rəqabətqabiliyyətlilik səviyyəsinin yüksəldilməsi kontekstində iqtisadi artımı təmin edən xarici iqtisadi amillər təşkil edir.

**Tədqiqatın predmetini** xarici iqtisadi amillərin təsiri ilə iqtisadi artımın intensivləşdirilməsi prosesində yaranmış iqtisadi münasibətlərin məcmusu təşkil edir.

**Tədqiqatın nəzəri və metodoloji əsasını**klassik iqtisadçı alimlərin nəzəri baxışları, müqayisəli üstünlüklər konsepsiyası, istehsal amilləri nəzəriyyəsi, iqtisadiyyatın dövlət tənzimlənməsi sahəsində keynsçi və neokeynsçi məktəb və cərəyanlarda formalaşmış nəzəriyyələr, neoklassik

artım və onun amillərinin inkişaf nəzəriyyəsi, beynəlxalq ticarətdə ümumi tarazlıq nəzəriyyəsi, rəqabət üstünlükləri nəzəriyyəsi, dünya və ölkə iqtisadçı alimlərinin iqtisadi artım və xarici əlaqələrə dair elmi tədqiqatları və konsepsiyaları, həmçinin Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Azərbaycan Respublikası Milli Məclisi tərəfindən qəbul edilmiş qanunlar və normativ aktlar təşkil edir.

Tədqiqat prosesində elmi abstraksiya, qruplaşdırma, təhlil, sintez, induksiya, deduksiya,kəmiyyət və keyfiyyət, ekspert qiymətləndirmələri, müqayisəli və sistemli təhlil, informasiyanın statistik işlənməsi və proqnozlaşdırma metodlarından, iqtisadi-riyazi üsullar və ekonometrik modelləşmə, pozitiv və rasional yanaşma metodoloji tədqiqat üsullarından istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazasını** Azərbaycan və xarici ölkə alimlərinin elmi araşdırmaları, tədqiqatçıların ekspert qiymətləndirmələri, dövri mətbuatın informasiya materialları, həmçinin Azərbaycan Respublikası Statistika Komitəsinin, Gömrük Komitəsinin, İqtisadi İnkişaf və Maliyyə Nazirliklərinin, Mərkəzi Bankın rəsmi məlumatları, beynəlxalq iqtisadi təşkilatların (BVF, Dünya Bankı, Dünya Ticarət Təşkilatı, BMT və.s) illik hesabatları və statistik məcmuələri təşkil edir.

**Tədqiqatın nəzəri və praktiki həmiyyəti.** Dissertasiyada əsaslandırılan nəzəri-metodoloji müddəalar, təklif və tövsiyyələr iqtisadi artım və onun formalaşması xüsusiyyətləri, iqtisadi artımın xarici və daxili amillərinin meyar və göstəriciləri, milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin artmasının bir sıra müddəalarını dəqiqləşdirir. Dissertasiya işində təklif olunan metodlar və praktiki tövsiyələr xarici ticarət problemlərinin tədqiqində, iqtisadiyyatın müxtəlif sahələrində Dövlət Proqramlarının hazırlanmasında, xarici iqtisadi strategiyanın formalaşmasında, xarici ticarət strukturunun diversifikasiyasında, milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin yüksəldilməsi üzrə dövlət siyasətinin işlənib hazırlanmasında, bütövlükdə iqtisadiyyatın modernləşdirilməsində,eynin zamanda «Makroiqtisadiyyat», «Dünya iqtisadiyyatı», «Beynəlxalq iqtisadi münasibətlər» fənlərinin tədrisində istifadə oluna bilər.

**Tədqiqatın elmi yeniliyi.** Azərbaycan Respublikasında xarici iqtisadi amillərin iqtisadi artıma təsiri üzrə müvafiq konsepsiyanın işlənib hazırlanmasına imkan verən nəzəri-metodoloji ümumiləşdirmələr, təhlil və qiymətləndirmə materialları, həmçinin şəxsən müəllif tərəfindən əldə edilən mühüm yeniliklər aşağıdakılardır:

• iqtisadi artımın mahiyyəti və məzmununa dair əsas nəzəri-metodoloji yanaşmalar şərh edilmiş, sistemləşdirilmiş və qloballaşma şəraitində makroiqtisadi dəyişmələrin şərtləri və iqtisadi artım amillərinin təsnifatı verilmişdir;

• iqtisadi artımın xarici və daxilli amillərinin əsas meyarları müəyyən edilmiş və onların milli iqtisadiyyatın inkişafında rolu göstərilmişdir;

• iqtisadi artımın əsas mərhələləri tədqiq edilmiş və iqtisadi artımın Azərbaycan modelinin xarakterik xüsusiyyətləri müəyyən edilmişdir;

• Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiya kontekstində müqayisəli təhlili aparılmış, onun əsas inkişaf parametrlərinin xarakteristikası verilmişdir;

• Azərbaycanda iqtisadi artımın təmin olunmasının xarici iqtisadi amilləri təhlil olunmuş və hər bir amilin rolu qiymətləndirilmişdir;

• Azərbaycan iqtisadiyyatının mövcud vəziyyəti beynəlxalq rəqabətqabiliyyətlilik göstəriciləri əsasında təhlil olunmuş və qiymətləndirilmişdir;

• İnvestisiyaların rəqabət üstünlüklərinin formalaşmasına təsiri aşkar edilmiş, Azərbaycan iqtisadiyyatına xarici kapitalın cəlb edilməsinin müasir formalarının səmərəliliyi qiymətləndirilmişdir;

• Azərbaycanda xarici iqtisadi əlaqələrin təkmilləşdirilməsi istiqamətləri və keyfiyyətcə yeni iqtisadi artıma nail olunma yolları göstərilmişdir;

• valyuta-məzənnə siyasətinin iqtisadi artıma təsir mexanizmləri aşkar edilmiş, Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyasında valyuta-məzənnə siyasətinin təkmilləşdirilməsi istiqamətində təkliflər işlənmişdir;

• iqtisadi artımın intensivləşdirilməsi və iqtisadiyyatın modernləşdirilməsi sahəsində mineral resurs ixracatçısı ölkələrinin xarici ticarət siyasəti alətlərinin müqayisəli təhlili verilmiş, onlarda ümumi cəhətlər aşkar edilmiş və xarici iqtisadi əlaqələrin modernləşməsi üzrə təklif və tövsiyələr hazırlanmışdır.

**Tədqiqatın nəticələri və aprobasiyası.** Dissertasiyada müəyyən edilmiş əsas müddəalar, praktiki nəticələr və tövsiyələr müxtəlif elmi-praktik konfraslarda məruzə edilmişdir, o cümlədən -"Azərbaycan Respublikasında Sahibkarlığın bəzi problemləri" mövzusunda Azərbaycan Respublikası Auditorlar Palatasında keçirilən. elmi praktiki konfrans. Bakı-2003, "Sosial iqtisadi innovativ inkişafın Belarusiya modeli:

formalaşdırılması və reallaşdırılması yolları" mövzusunda Belarusiya MEA İqtisadiyyat İnstitutundakeçirilən beynəlxalq elmi konfrans. Minsk-2006, "İqtisadiyyatda hüquqi tənzimləmənin təkmilləşdirilməsi və iqtisadiyyatın aktual problemləri" mövzusunda Rusiya Federasiyası Elm və Təhsil nazirliyinin keçirdiyi beynəlxalq elmi konfrans. Pyatiqorsk-2009, “Qloballaşma Prosesində Qafqaz və Mərkəzi Asiya” mövzusunda Qafqaz Universitetində keçirilən iqtisadi və beynəlxalq münasibətlər konqresi. Bakı-2007, "İqtisadiyyatda prioritet vəzifələrin yerinə yetirilməsində maliyyə-kredit sisteminin rolu" mövzusunda Sankt-Peterburq Dövlət Maliyyə və İqtisadiyyat Universitetində keçirilən beynəlxalq elmi konfrans. Sankt-Peterburq-2010, "Qlobal maliyyə böhranı və dövlət idarəetmə sistemində antiböhran siyasət:dünya təcrübəsi və Azərbaycan modeli" mövzusunda Azərbaycan Respublikası Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyası, Türkiyə Cümhuriyyəti Mərmərə Universiteti, Sankt-Peterburq Dövlət İqtisadiyyat və Maliyyə Universiteti tərəfindən keçirilən beynəlxalq elmi-praktiki konfrans. Bakı-2010,“İnkişaf edən iqtisadiyyatlarda maliyyə: imkanlar, problemlər və həlli yolları” mövzusunda Marmara Universitetində keçirilən beynəlxalq konfrans, İstanbul-2011.

Tədqiqatın nəticələri üzrə ümumi həcmi 45 ç.v. olan 60 tezis və məqalə, 1 monoqrafiya, 2 kollektiv monoqrafiya dərc edilmişdir.

Dissertasiya işində əsaslandırılmış nəzəri və əməli əhəmiyyətli nəticə və təkliflər Azərbaycan Dövlət İqtisad Universitetində "Bankların xarici iqtisadi fəaliyyəti", "Valyuta nəzəriyyələri", Regional valyuta inteqrasiyası" və.s. fənlərin tədrisi prosesində istifadə olunur. (arayış № 010-020-184/13, 05.02.2014)

Dissertasiya işində əldə edilmiş mühüm nəzəri-praktiki əhəmiyyətli təkliflər Azərbaycan Respublikasının Ümümdünya Ticarət Təşkilatına üzv olmasına hazırlıq işləri üzrə Komissiya (arayış № ÜTT-1/023 14 may 2007), Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi (arayış № 01/1-13 23 aprel 2012), Azərbaycan Respublikası Mərkəzi Bankı (arayış № 12/238 24 aprel 2012) tərəfindən tətbiq edilir.

**Tədqiqat işinin quruluşu və həcmi.** Dissertasiya ümumi həcmi 343 səhifə olmaqla, giriş, beş fəsil, iyirmi bir paraqraf, 36 cədvəl, 13 qrafik-diaqram,3 şəkil, 3 sxem, nəticə, istifadə olunmuş mənbələrin siyahısını (267 mənbə daxildir) özündə əks etdirir.

## DİSSERTASİYA İŞİNİN STRUKTURU

**Giriş**

**I fəsil. Qloballaşma şəraitində iqtisadi artımın nəzəri və metodoloji aspektləri**

1.1. İqtisadi artımın kəmiyyət və keyfiyyət parametrlərinin xarakteristikası

1.2. İqtisadi artım modellərini müəyyən edən nəzəriyyələr və metodoloji yanaşmalar

1.3. Müasir qloballaşma meylləri və iqtisadi artımın xüsusiyyətləri

1.4. İqtisadi artımın endogen və ekzogen amillərinin əsas meyarları və milli iqtisadiyyatın inkişafında onların rolu

**II fəsil. Azərbaycanda iqtisadi artımın təmin olunmasında xarici iqtisadi amillərin rolu və qiymətləndirilməsi**

2.1. Azərbaycanda iqtisadi artımın əsas mərhələləri və iqtisadi artımın Azərbaycan modeli

2.2. Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiya kontekstində müqayisəli təhlili

2.3. Azərbaycanda xarici iqtisadi əlaqələrin formalaşmasının əsas istiqamətləri və qiymətləndirilməsi

2.4. Xarici ticarət sektorunun Azərbaycan iqtisadiyyatının inkişafına təsiri

2.5. Turizm sektorunun xarici iqtisadi münasibətlər sistemində rolu

**III fəsil. Milli iqtisadiyyatın beynəlxalq rəqabətqabiliyyətliliyinin iqtisadi artımla qarşılıqlı əlaqəsi**

3.1. Beynəlxalq iqtisadi rəqabətqabiliyyətlilik iqtisadi artımın əsas amili kimi

3.2. Azərbaycan iqtisadiyyatının beynəlxalq rəqabətqabiliyyətliliyinin qiymətləndirilməsi

3.3. Azərbaycanda ixrac potensialının müqayisəli üstünlük göstəriciləri əsasında müəyyən edilməsi

3.4. İqtisadi açıqlıq səviyyəsi və onun iqtisadi artıma təsiri

3.5 ÜTT-yə üzvlüyün Azərbaycan iqtisadiyyatının rəqabətqabiliyyətliliyinin yüksəldilməsinə və struktur dəyişikliklərinə təsiri

**IV fəsil. Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyası və xarici maliyyələşmə mənbələrinin iqtisadi artıma təsiri**

4.1. Azərbaycanda iqtisadi artımın təmin edilməsində xarici investisiyalar

4.2. Valyuta-məzənnə siyasətinin iqtisadi artımla qarşılıqlı əlaqəsi və ona təsir mexanizmləri
4.3. Xarici borcların iqtisadi təhlükəsizlik baxımından qiymətləndirilməsi
4.4. Tədiyyə balansı əsasında Azərbaycanın xarici iqtisadi əlaqələrinin qiymətləndirilməsi
**V fəsil. Azərbaycanda xarici iqtisadi əlaqələrin təkmilləşdirilməsi və iqtisadi artımda keyfiyyət dəyişikliklərinin əsas istiqamətləri**
5.1. Azərbaycanın səmərəli xarici iqtisadi əlaqələrə əsaslanan inkişaf modelinin seçilməsində dünya təcrübəsindən istifadə
5.2. Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyasında valyuta-maliyyə siyasətinin təkmilləşdirilməsi istiqamətləri
5.3. Azərbaycanda xarici iqtisadi əlaqələrin modernləşməsinin əsas istiqamətləri

**Nəticə**
**İstifadə olunmuş ədəbiyyat siyahısı**

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

***Təqdim olunan dissertasiya işinin məzmunu və nəticələri aşagıdakı müddəalarda əks olunur:***

1. **İqtisadi artımın kəmiyyət vəkeyfiyyət parametrlərinin xarakteristikası.** Müasir iqtisadi nəzəriyyələrdədavamlı inkişaf və iqtisadi artım problemi mühüm yer tutur. Praktiki olaraq, bütün ölkələrin hökumətləri tərəfindən həyata keçirilən iqtisadi siyasət, o cümlədən maliyyə, vergi, sosial və sair sahələrdə həyata keçirilən islahatlar iqtisadi artım problеminin həllinə yönəlib. Bu baxımdan, iqtisadi artım milli təsərrüfat sisteminin inkişaf etməsinin meyarı kimi çıxış edir.

Elmi ədəbiyyatlarda «iqtisadi artım» anlayışı barədə deyilən fikirləri ümumiləşdirərək iqtisadi artımın mahiyyətini müəyyən edərkən "iqtisadi artım" və "iqtisadi inkişaf" anlayışlarını bir-birindən fərqləndirmək lazımdır. İkincisi, iqtisadi artımın mahiyyətini açıqlayarkən bu iki anlayışın əsas xarakterik xüsusiyyətlərinin dialektik əlaqəsini nəzərə almaq lazımdır. Belə ki, "iqtisadi artım" və "iqtisadi inkişaf" həm fərqli, həm də bir-birlərini şərtləndirən əsas amillərdir. Cəmiyyətin iqtisadi inkişafı

çoxtərəfli proses olub, iqtisadi artımı, iqtisadiyyatın bütün sahələrində baş verən irəliləyişləri, əhalinin həyat səviyyəsinin və şəraitinin daha da təkmilləşməsini əhatə edir. Digər tərəfdən, iqtisadi artım milli iqtisadiyyat və onun strukturunda keyfiyyət baxımdan dəyişikliklərə, yəni iqtisadi inkişafa gətirib çıxaran «əhəmiyyətli qüvvələrdən» biridir. "İqtisadi artım" ilə "iqtisadi inkişafın" dialektik əlaqəsi kəmiyyət dəyişmələrinin keyfiyyət dəyişmələrinə keçməsi qanunun iqtisadi sahədə bariz nümunəsidir.

Bütün bunları nəzərə alaraq, iqtisadi ədəbiyyatlarda iqtisadi artım kəmiyyət və keyfiyyət tərəfdən, xüsusilə də sənaye istehsalının həcmi və ÜDM-in dinamikasına görə nəzərdən keçirilir. Başqa sözlə, iqtisadi artım bir tərəfdən istehsal edilmiş məhsul və xidmətlərin həcminin dinamikası, digər tərəfdən isə cəmiyyətin artan tələbatının təmin edilməsi qabiliyyəti kimi başa düşülür. Bu iki proses bir-birindən asılı deyil və birinin olması digərinin mövcudluğunu zəruri etmir. Həqiqətən də, məhsul və xidmətlər istehsalının həcmi nə qədər yüksək olsa da, bu, əhalinin həyat səviyyəsinin yaxşılaşması və ehtiyaclarının ödənilməsini mütləq qaydada şərtləndirmir. Məsələn, müəyyən dövr ərzində məhsul istehsalı yüksək olarsa, amma müasir keyfiyyət tələblərinə uyğun olmadıqda istehsal edilmiş malların anbarlarda yığılıb qalmasına səbəb olur. Digər bir misal: enerji daşıyıcılarından qeyri-rasional istifadə əhalinin həyat şəraitinə müsbət təsir etmir və cəmiyyətdə maddi rifahın arzuolunan şəkildə artımına yol vermir. Hərbi xərclərin artırılması ölkənin milli təhlükəsizliyi baxımından əhəmiyyətli olsa da, bütün hallarda əhalinin həyat səviyyəsinin yüksəlməsi demək deyil.

Son dövrlər akademik dairələr, praktiklər, beynəlxalq təşkilatlar, xüsusilə Dünya Bankı tərəfindən "inklüziv artım" konsepsiyası geniş müzakirə edilir. İnklüziv artım ölkə ərazisində yaradılan iqtisadi dəyərdən hamının faydalanmasını, əldə olunan iqtisadi imkanlara cəmiyyətin bütün üzvlərinin bərabər çıxışının təmin edilməsini nəzərdə tutur. İnklüziv artıma nail olmaq üçün əsas məsələ artımın sürəti deyil, onun mənbələrinin strukturudur. Burada ölkənin əmək ehtiyatlarının böyük hissəsinin iştirak etdiyi məhsuldar məşğulluq, təhsil və insan kapitalı xüsusi rol oynayır.

İqtisadi artımın kəmiyyət və keyfiyyət xüsusiyyətlərini təhlil edərkən onun effektivliyini də nəzərə almaq lazımdır. Yalnız istehsalın effektivliyinə əsaslanan iqtisadi artım cəmiyyətin artan tələbatını təmin edir. İqtisadi effektivliyin qiymətləndirilməsi onu daha yaxşı təmin edən nəti-

cənin məsrəflər ilə müqayisə olunmasına əsaslanmışdır. İqtisadi effektivliyin göstəriciləri müxtəlif mənşəlidir. Effektivlik göstəriciləri arasında əmək məhsuldarlığı, məhsulun keyfiyyəti, material və əmək tutumu mühüm əhəmiyyət kəsb edir.

Müasir dövrdə iqtisadi artım anlayışına müxtəlif cür yanaşmalar mövcuddur. Ən geniş yayılmış yanaşma iqtisadi artım, milli gəlir və yaümumi daxili məhsulun (ÜDM), ümumi milli gəlirin (ÜMG) baza dövrünə nisbətən real artımıdır. Qeyd edək ki, alıcılıq qabiliyyəti pariteti (AQP) ilə hesablanmış ÜDM ölkədə makroiqtisadi göstəricilərin real vəziyyətini müəyyən dərəcədə əks etdirir. Atlas metodu ilə hesablanan adambaşına düşən ÜDM və ya MG isə ölkədə hər hansı ildə və əvvəlki iki ildə milli valyuta məzənnəsi, ÜDM deflyatoru əsasında götürülən inflyasiya səviyyəsi və Yaponiya, Böyük Britaniya, ABŞ və avro zonasında inflyasiya səviyyəsi əsasında hesablanır. Yaponiya, Böyük Britaniya, ABŞ və avro zonasında inflyasiya səviyyəsi SDR deflyatorunun dəyişməsini göstərir. SDR deflyatoru isə bu ölkələrin SDR ilə ifadə olunmuş ÜDM deflyatoru əsasında müəyyən edilir.

ÜDM-in hesablanmasının müxtəlif metodikaya əsaslanması beynəlxalq müqayisə üçün əhəmiyyətlidir. Milli Hesablar Sisteminin (MHS) əsas göstəricisi olan ÜDM-in isə ölkədə iqtisadi inkişafı tam əks etdirməsi haqqında iqtisadçılar arasında birmənalı fikir yoxdur. ÜDM-in ölkədəki real iqtisadi vəziyyəti göstərmədiyi haqqında son illər daha çox fikirlər səslənməkdədir. Belə ki, ÜDM-in hesablanmasında bir sıra problemlər və çətinliklər mövcuddur. Belə problemlər iqtisadi inkişafı düzgün qiymətləndirməyə imkan vermir. Məsələn, 1) ÜDM hesablanarkən bazarda alqı-satqıya cəlb olunan mal və xidmətlərin dəyəri əsas götürülür və bazarda satılmayan mal və xidmətlər hesablama zamanı nəzərə alınmır; 2) ÜDM hesablanarkən «kölgə iqtisadiyyatı» nəzərə alınmır; 3) ÜDM-in hesablanması zamanı ölkənin sərvəti hesab edilən təbii ehtiyatların – neft, təbii qaz, qızıl və s. ehtiyatların tükənməsi nəzərə alınmır; 4) Beynəlxalq müqayisə üçün ABŞ dolları ilə hesablanmış ÜDM milli valyutadakı ÜDM-in valyuta kursuna nisbəti ilə hesablandığına görə, valyuta məzənnəsindən asılı olaraq dəyişir; 5) ÜDM hesablanarkən xarici investorların ölkə daxilində yaratdıqları əlavə dəyər artımı da nəzərə alındığı üçün ÜDM iqtisadiyyatda real inkişafı əks etdirmir; 6) ÜDM hesablanarkən bilavasitə insanların həyat səviyyəsi ilə bağlı olmayan xərclər də (məsələn, hərbi xərclər) nəzərə alındığı üçün, ÜDM, son məqsədi insanların həyat səviyyəsinin yüksəldilməsi olan

iqtisadi artımın hesablanmasında müəyyən təhrifə yol verir; 7) Yeni məhsul və xidmətlərin meydana çıxması uzunmüddətli müqayisələrə imkan vermir.

Yuxarıda göstərilənlərdən belə bir qənaətə gəlmək olar ki, ÜDM göstəricisi ölkədəki iqtisadi inkişaf səviyyəsini tam əks etdirmir. ÜDM-dən fərqli olaraq, Ümumi Milli Məhsul daha əhatəli makrogöstəricidir. Ərazisi və iqtisadiyyatı böyük ölkələrdə milli iqtisadiyyatın inkişaf imkanlarını müəyyən etmək üçün ÜDM ilə yanaşı ÜMM göstəricisindən də istifadə edilir. Əvvəllər Azərbaycanda xaricə kapital ixracı imkanı məhdud olduğundan ÜDM-in kəmiyyəti ilə ÜMM arasında ciddi fərq müşahidə olunmurdu. Hazırda respublikanın fiziki və hüquqi şəxsləri xarici ölkələrdə geniş fəaliyyət göstərdiklərindən ÜMM göstəricisinin hesablanması vacibdir.

**2. İqtisadi artımın endogen və ekzogen amillərinin əsas meyarları və milli iqtisadiyyatın inkişafında onların rolu.** İqtisadi artımın tədqiqində onun amillərinin müəyyən edilməsi və təhlili əsas yer tutur. İqtisadi artım amilləri dedikdə, istehsalın real həcminin artmasına, onun səmərəliliyinin və keyfiyyətinin yüksəldilməsinə təsir edən proseslər başa düşülür. Bu amillər iqtisadi artımın dinamikasını və səviyyəsini müəyyən edir, istehsalın real həcminin artmasına birbaşa təsir göstərir, onun səmərəliliyinin artırılmasında mühüm rol oynayır.

İqtisadi artımın əsas amillərinin qruplaşdırılması şərti xarakter daşıyır. Ancaq bütün nəzəri və empirik tədqiqatlarda iqtisadi artım amillərinin təsnifləşdirilməsi daxili (endogen) və xarici (ekzogen) istiqamətlər üzrə aparılır. Daxili və xarici amillər bir-biri ilə sıx əlaqəlidir. Belə ki, qloballaşmanın genişlənməsi iqtisadi artımın daxili amillərinə daha çox xarici amillərin transformasiya olunmasına zəmin yaradır. Digər tərəfdən, ekzogen amillər ancaq səmərəli daxili istehsal amillərinin mövcudluğu halında əhəmiyyətli ola bilər. Ümumiyyətlə,iqtisadi artımın endogen və ekzogen amillərini aşağıdakı kimi qruplaşdırmaq olar ( Cədvəl 1):

*Cədvəl 1.*

***İqtisadi artımın amilləri***

| **Endogen amillər** | **Ekzogen amillər** |
|---|---|
| Təbii ehtiyatlar | Xarici ticarət |
| İnsan kapitalı | Xarici investisiyalar |
| Sosial-iqtisadi vəziyyət | Miqrasiya |
| Məhsuldarlıq | Xarici borc və yardımlar |
| İnfrastrukturun inkişaf səviyyəsi | Beynəlxalq turizm |
| Siyasi-hərbi vəziyyət | İqtisadi açıqlıq səviyyəsi |
| Elmi-texniki tərəqqi | Qloballaşma |
| İqtisadi islahatların səviyyəsi | İnteqrasiya |
| Ekoloji vəziyyət | Valyuta məzənnəsi |

İqtisadi artıma təsir edən əsas amillərdən biri iqtisadiyyatın inkişaf dinamikası və onun strukturunda baş verən dəyişikliklərdir. İqtisadiyyatda səmərəliliyin yüksəlməsi, infrastrukturun inkişafı, liberallaşma və s. iqtisadi artımın endogen amilləri arasında mühüm yer tutur. Ancaq, tipindən və xarakterindən asılı olmayaraq, bütün iqtisadi sistemlərdə iqtisadi artımın əsas meyarı mənfəətdir.

İqtisadi artımın daxili amilləri ilə yanaşı, ölkələr arasında təsərrüfat əlaqələrinin genişlənməsi və inteqrasiya proseslərinin sürətlənməsi nəticəsində xarici amillər ön plana çıxır. Bu amillərə beynəlxalq əmək bölgüsü, xarici iqtisadi fəaliyyət, ixrac və idxal əməliyyatları, xarici borc, kapital axını, yüksək səmərəliliyə malik olan investisiya layihələri və s. aid edilir.

Xarici iqtisadi əlaqələri ölkə iqtisadiyyatında xüsusi çəkiyə malik olan ölkələrin iqtisadiyyatları təhlil edilərkən çox vaxt «paralel xarici iqtisadiyyat» və ya «xarici sektor» terminləri işlədilir. Bəzən buna «ikinci iqtisadiyyat» da deyilir. Bu beynəlxalq istehsal proseslərini əks etdirir. Belə iqtisadiyyat milli təsərrüfatın xarici iqtisadi əlaqələr sferası ilə birbaşa əlaqəli olan sahələri əhatə edir vəixrac məhsullarının istehsalı ilə məşğuldur. Dünya ölkələrinin təcrübəsi göstərir ki, xarici iqtisadi sferada iqtisadi artıma təsir edən əsas amil xarici ticarətdir. Xarici ticarət

və iqtisadi artım arasındakı əlaqə barədə irəli sürülən fikirləri aşağıdakı kimi qruplaşdırmaq olar:

1. xarici ticarət istehsal amillərinin sektorlararası bölgüsünü yenidən dəyişdirir - ehtiyatların dəyişməsi effekti;

2. xarici ticarət ölkə daxilində rəqabəti artıraraq, səmərəliliyin yüksəlməsinə səbəb olur – səmərələşdirici idxal hipotezi;

3. xarici ticarət bazar həcmini artıraraq, yerli istehsalçıların böyük ölçülü iqtisadiyyatlardan yararlanmasına kömək edir – böyük həcmli iqtisadiyyatlar effekti;

4. xarici ticarət ölkə daxilində mövcud olmayan xammal və materialların təmin edilməsinə şərait yaradaraq, beynəlxalq ixtisaslaşmanın təsiri nəticəsində səmərəlilik artımına gətirib çıxarır – ehtiyatları əldə etmək effekti;

5. xarici ticarət ölkələrarası və sektorlararası informasiya və bilgi axınını asanlaşdıraraq texnoloji inkişafa təsir edir – texnoloji inkişaf effekti.

Xarici ticarətlə yanaşı, ölkə iqtisadiyyatına xarici investisiya qoyuluşu da iqtisadi artımın əsas amillərindən biridir. İqtisadi ehtiyatların kəmiyyətinin artırılması, onların keyfiyyətinin yüksəldilməsi və təkmilləşdirilməsi ilk növbədə investisiya tələb edir. Buna görə də, investisiya iqtisadi artım tempinin əsas tənzimləyicisi kimi çıxış edir.

Xarici iqtisadi amillər sırasında beynəlxalq turizm də mühüm rola malikdir. Birinci Dünya Müharibəsinə qədər dəbdəbə, 1960-cı illərə qədər isə mədəni bir hərəkət kimi qiymətləndirilən turizm, hazırda insanlar tərəfindən zəruri ehtiyac olaraq qəbul edilmiş və dünya iqtisadiyyatında sürətlə inkişaf edən bir sektora çevrilmişdir. Turizm sektoru bir neçə sahəni özündə birləşdirdiyinə görə və iqtisadiyyatın digər sahələrini də inkişaf etməyə sövq etdiyindən müəyyən üstünlüyə malikdir. Belə ki, turizmin inkişafı mehmanxana və istirahət kompleksləri, nəqliyyat, ticarət mərkəzləri və əyləncə yerlərinə birbaşa, yerli idarəetmə orqanlarının gəlirlərinə, infrastrukturun inkişafına isə dolayı yolla təsir göstərir.

İqtisadi artımın xarici iqtisadi amillərindən biri də valyuta məzənnələridir. Maliyyə qloballaşmasının genişlənməsi, ölkələr arasında maliyyə-valyuta əlaqələrinin güclənməsi valyuta məzənnələrinin dəyişməsinin iqtisadi artıma təsirini artırır. Ümumiyyətlə, real valyuta məzənnəsi iqtisadi artıma idxal və ixracın səmərəliliyinin dəyişməsi və daxili bazarda milli istehsalçıların rəqabətqabiliyyətliliyinin artması, gəlirlərin

ixracatçıların xeyrinə yenidən bölüşdürülməsi ilə təsir göstərir. Milli valyutaların qiymətdən düşməsi ixrac məhsullarının qiymətinin azalması və idxal məhsullarının qiymətinin artmasına səbəb olur. Bu da ölkədən məhsul ixracının artmasına şərait yaradır. Bu baxımdan, real valyuta məzənnəsinin artıb azalması təkcə pul emissiyasının həcmi, qızıl-valyuta ehtiyatlarının vəziyyəti, idxal və ixrac əməliyyatlarının səmərəliliyinə deyil, həmçinin makroiqtisadi göstəricilərə - ÜDM, investisiya qoyuluşu, sənaye məhsullarının fiziki həcm indeksinə təsir göstərir.

Xarici iqtisadi əlaqələrin əsas formalarından biri olan miqrasiya iqtisadi artımı amilləri arasında mühüm yer tutur. Miqrantların ödədikləri pul dünyanın bir çox ölkələrinin iqtisadi inkişafında mühüm rol oynayır. Miqrantların öz ölkələrinə göndərdikləri pul köçürmələri daxili tələbin stimullaşdırılması, yoxsulluğun azaldılması, investisiya qoyuluşunun artırılması nəticəsində iqtisadi artıma təsir göstərir.

Yuxarıda göstərilənlərdən başqa iqtisadi artımın xarici iqtisadi amilləri arasında nəqliyyat amili, ölkənin okeana birbaşa çıxışı, ərazinin böyüklüyü və.s qeyd edilir.

**3. Azərbaycanda iqtisadi artımın əsas mərhələləri və iqtisadi artımın mənbələri.** Müstəqillik dövründən sonra ölkədə mövcud iqtisadi inkişafı üç əsas mərhələyə bölmək olar. Birinci mərhələ 1991-1995-ci illəri əhatə edən iqtisadi böhran və ya tənəzzül dövrü. İkinci mərhələ 1996-cı ildən başlayaraq 2005-ci ilə qədər davam edən iqtisadi islahatlar və iqtisadiyyatın bütün sahələrində bərpa dövrü. Üçüncü mərhələ makroiqtisadi stabillik və dinamik iqtisadi inkişaf dövrü.

***Birinci mərhələdə*** Azərbaycan Respublikasının qarşılaşdığı siyasi (1991-1993-cü illərdə siyasi vəziyyətin qeyri-sabitliyi), hərbi (Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü) və iqtisadi tənəzzül ölkədə iqtisadi islahatların aparılmasına mane olmuş, iqtisadiyyatın bütün sahələri demək olar ki, fəaliyyətini dayandırmışdı. Bütün bu problemlər Azərbaycanda iqtisadi islahatlara digər postsovet respublikaları ilə müqayisədə daha gec başlanmasına(1994-cü ilin sonu 1995-ci ilin əvvəli) səbəb olmuşdu.

Müstəqillik əldə ediləndən sonra ölkə iqtisadiyyatında baş verən böhranın qarşısını yalnız 1996-cı ildə almaq mümkün oldu.1997-ci ildən etibarən isə ölkə iqtisadiyyatında müəyyən irəliləyişlərə nail olundu. İqtisadi inkişafın ***ikinci mərhələsində*** ölkədə əsasən aşağıdakı üç istiqamət üzrə tədbirlər həyata keçirilib:1) liberal-demokratik yönlü bazar prinsiplərinə əsaslanan iqtisadiyyatın yaradılması; 2) ölkənin neft-

qaz yataqlarının işlənməsi; 3) dünya iqtisadiyyatı ilə qlobal və regional səviyyədə inteqrasiyanın gücləndirilməsi.

Azərbaycanda iqtisadi inkişafın ***üçüncü mərhələsi*** 2005-ci ildən sonrakı dövrü əhatə edir. 2005-ci ilin yekunları onu göstərdi ki, Azərbaycanda makroiqtisadiyyatın bütün göstəriciləri üzrə əsaslı artım baş verib. ÜDM-in fiziki həcm indeksi 26,5% artmış və 2006-cı ildəiqtisadi artım 34.5% təşkil etmişdi. Bu, dünya ölkələri arasında iqtisadi artım tempinə görə ən yüksək nəticə idi. Adambaşına düşən ÜDM-in artması hesabına beynəlxalq maliyyə təşkilatlarının təsnifatında Azərbaycan aşağı gəlirli ölkələr (low income) siyahısından çıxarılaraq orta gəlirdən aşağı gəlirli (lower middle income) ölkələr qrupuna aid edilmişdir.

Qeyd edək ki, iqtisadiyyatda baş verən artımın əsas səbəbi - 1995-ci ildən başlayaraq ***iqtisadi inkişafın Azərbaycan modelinin*** tətbiq edilməsidir. Bu model milli xüsusiyyətləri və maraqları qorumaqla, təsərrüfat sisteminin bazar mexanizminə keçidin dünya təcrübəsini əsas götürür, tarixi şərait, real sosial-iqtisadi və siyasi vəziyyət, həmçinin adət-ənənələr əsasında hüquqi-demokratik dövlət qurulmasını ön plana çəkir.

Davamlı və dinamik inkişaf məntiqinə əsaslanan bu modelin strateji istiqamətlərini aşağıdakı kimi səciyyələndirmək olar: 1) sərbəst bazar münasibətlərinə əsaslanan milli iqtisadiyyatın formalaşdırılması; 2) ölkədə mövcud olan təbii-iqtisadi, texniki-istehsal və elmi-texniki potensialın aktiv təsərrüfat dövriyyəsinə cəlb olunması; 3) milli iqtisadiyyatın dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyası; 4) əhalinin həyat şəraitini yaxşılaşdırmağı əsas götürən sosial yönümlülük; 5) əhalinin məşğulluğunu təmin edən iqtisadi stabillik və makroiqtisadi artım probleminin həllinə balanslaşdırılmış baxış; 6) qeyri-effektiv təsərrüfat subyektlərinin fəaliyyətinin bazar mexanizmləri əsasında tənzimlənməsi; 7) investisiya siyasətinin həyata keçirilməsi və xarici kapitalın cəlb edilməsi üçün müvafiq iqtisadi stimul mexanizmlərinin yaradılması; 8) etibarlı sosial təminat üçün dövlətin aktiv rolunun saxlanılması, əhalinin aztəminatlı təbəqəsinin sosial maraqlarının qorunması üçün güclü sosial siyasətin həyata keçirilməsi.

Təhlillər göstərir ki, son illər Azərbaycan iqtisadiyyatında baş vermiş yüksəliş birbaşa və dolayı yolla xarici iqtisadi sfera ilə bağlı olmuşdur. 2005-ci ilə qədər iqtisadi artım əsas fondlara qoyulan kapital qoyuluşu, 2005-ci ildən sonra isə xarici ticarət hesabına əldə olunmuşdur. 1994-cü ildə Xəzər dənizinin Azərbaycan sektorunda neft

yataqlarının hasilatı ilə bağlı xarici şirkətlərlə bağlanmış sazişə müvafiq olaraq, ölkə iqtisadiyyatına xarici investisiyaların qoyulması, neft hasilatının artması, Bakı-Tbilisi-Ceyhan neft və Cənubi Qafqaz qaz boru kəmərlərinin inşası, həmçinin artan neft qiymətləri sayəsində daxili tələbin stimullaşdırılması iqtisadi artımın əsas hərəkətverici qüvvəsi olmuşdur. Ümumiyyətlə, Azərbaycanda iqtisadi artıma təsir edən xarici iqtisadi amilləri aşağıdakı kimi qruplaşdırmaq olar:

1) xarici ticarətin həcminin artması; 2) xidmətlər ticarətinin, xüsusilə nəqliyyat daşımalarının artması; 3) turizm gəlirləri; 4) miqrantların xarici ölkələrdən göndərdiyi pul vəsaitləri; 5) xarici investisiya qoyuluşları; 6) manatın xarici valyutalara, xüsusilə ABŞ dolları və avroya nisbətdə məzənnəsinin dəyişməsi; 7) neftin dünya qiymətinin əsas etibarı ilə artan istiqamətdə dəyişməsi.

İqtisadi artımın xarici və daxili amillərini əks etdirən qrafikdəki məlumatlar da təsdiq edir ki, 2003-2010-cu illərdə ÜDM-in artmasına xarici tələb təsir göstərmişdir. (Qrafik-diaqram: 1)




***Qrafik-diaqram 1. Azərbaycanda iqtisadi artımın xarici və daxili mənbələri (%-lə)***

2005-2007-ci illərdə isə xarici iqtisadi amil iqtisadi artımın yaradılmasında aparıcı rola malik olmuşdur. Bununla yanaşı, daxili tələbin

formalaşmasında xarici amillərin payı yüksək olmuşdu. Belə ki, daxili tələbdə əsas hissə istehlak xərcləri ilə əlaqədardır. Bu üç amildən asılıdır: 1) iqtisadi aktivliyin səviyyəsi; 2) əmək bazarında vəziyyət ; 3) neftin dünya qiymətləri ilə əks olunan xarici konyunktur.

İqtisadi aktivlik səviyyəsi və əmək bazarında vəziyyətə isə dövlət büdcəsindən ayrılan vəsaitlər hesabına həyata keçirilən infrastruktur layihələr və əmək haqqının artırılması təsir göstərir. Azərbaycanda dövlət büdcəsinin gəlirlərinin formalaşması və müxtəlif sosial və infrastruktur layihələrin həyata keçirilməsi üçün mühüm mənbələrdən biri Azərbaycan Dövlət Neft Fondunun (ARDNF) vəsaitləridir. Neft Fondunun gəlirlərinin formalaşması isə əsasən xarici iqtisadi fəaliyyətlə bağlıdır.

İqtisadi artımı xarakterizə edən əsas parametrlərdən biri də ümumi tələbin strukturudur. İxracın xammal yönümlülüyü şəraitində daxili tələbi stimullaşdırmaq mühüm əhəmiyyət kəsb edir. Dünya ölkələrinin təcrübəsi göstərir ki, digər amillər sabit qaldıqda illik iqtisadi artımı 4-5% həcmində saxlamaq üçün daxili tələbin artımı ildə 6-7% olmalıdır. Bu baxımdan, "İxrac edilmiş məhsulların ümumi istehsalda xüsusi çəkisi" və "idxal mallarının ümumi tələbdə xüsusi çəkisi" göstəriciləri Azərbaycanda xarici iqtisadi əlaqələrin əhəmiyyətini göstərən mühüm göstəricilərdəndir. (Cədvəl 2.)

***Cədvəl 2.***

**Məcmu tələb və təklifin göstəriciləri**

| | **1995** | **2000** | **2005** | **2010** | **2011** | **2012** |
|---|---|---|---|---|---|---|
| Məhsul istehsalı, (mln manat) | 4191.6 | 8194 | 20252.3 | 57797.5 | 70361.3 | 74455.2 |
| İxrac, (mln manat) | 693.2 | 1895 | 7881.8 | 23060.5 | 29388.3 | 29000.3 |
| İxracın istehsalda xüsusi çəkisi, % | 16.5 | 23.1 | 41.6 | 39.9 | 41.8 | 38.9 |
| Daxili istehlak və yığım, (mln manat) | 2580.2 | 4729 | 11265.2 | 29050.6 | 35188.6 | 38783.6 |
| İdxal, (mln manat) | 1139.6 | 1811 | 6624.5 | 8782.3 | 12541.9 | 13843.9 |
| İdxalın daxili tələbdə xüsusi çəkisi, % | 44.17 | 38.29 | 59.25 | 30.2 | 35.6 | 35.7 |

Cədvəl 2-dən göründüyü kimi, 1995-ci ildə Azərbaycanda ümumi məhsul istehsalının 16.54%-i, 2009-cu ildə 37.47%-i, 2012-ci ildə isə 38.9%-i ixrac edilib. Azərbaycanda 2012-ci ildə daxili tələb cari qiymətlərlə 2005-ci ilə nisbətən 3.48 dəfə artıb. Lakin daxili tələb ÜDM deflyatoru əsasında 2005-ci ilin qiymətləri ilə hesablanarsa, onda 2012-ci ildə daxili tələbin 2005-ci illə müqayisədə real ifadədə, daha az - 94.3% artdığı məlum olar. Müqayisə üçün deyək ki, bu dövrdə ÜDM 2005-ci ilin qiymətləri ilə 2.41 dəfə artıb. Bu isə onu göstərir ki, istehsal edilmiş malların ixraca meylliliyi xeyli artıb. Belə ki, tələbin daxili və xarici amillərə nisbəti 2003-cü ildə 75:25, 2004-cü ildə 72:28, 2005-ci ildə 60:40, 2009-cu ildə 58:42 təşkil edirdisə, 2012-ci ildə bu göstərici yenidən 59:41 nisbətində olub.

Təklifin strukturunda isə nisbətən müsbət meyllər baş vermişdir. İdxalın ümumi təklifdə xüsusi çəkisi 2003-cü ildə 39.6%, 2004-cü ildə 42.1%, 2005-ci ildə36.05%, 2009 və 2012-ci illərdə bu göstərici 19% təşkil etmişdir. İdxalın ümumi təklifdə xüsusi çəkisinin aşağı düşməsi yerli məhsulların istehsalının artması ilə əlaqədardır. Bu meyllər, həmçinin idxalın daxili tələbdə payının aşağı düşməsində də özünü göstərir. Belə ki, 2005-ci ildə daxili tələbin təqribən 60%-i idxal malları hesabına ödənildiyi halda,2012-ci ildə bu göstərici 35% olmuşdur. Azərbaycanda iqtisadi artımın gələcək prioritet istiqamətlərindən biri orta keyfiyyətli idxal mallarının yerli istehsalla əvəz edilməsidir.

Xarici ticarətlə yanaşı, Azərbaycan iqtisadiyyatına xarici investisiya qoyuluşu da iqtisadi artımın əsas amillərindən biridir. 1994-cü ildən etibarən, Azərbaycan iqtisadiyyatını, xüsusən yanacaq-energetika sektorunu daha da inkişaf etdirmək məqsədilə böyük həcmdə xarici investisiyalar cəlb edilmişdir. Bütövlükdə 1995-2012 ci illərdə ölkə iqtisadiyyatına 144.42 mlrd. dollar sərmayə qoyulmuşdur. Bu məbləğin 73.23 mlrd.dolları xarici investisiyalardır ki, bunun da 43.46 mlrd. dolları neft sektoruna yönəldilib.Neft sektoruna böyük investisiyaların qoyulması onunla bağlı olan qeyri-neft sahələrinin, o cümlədən tikinti, xidmətlər və rabitə sektorlarının inkişafına da stimul yaradır. Yuxarıda qeyd edildiyi kimi, ölkədə həyata keçirilən iqtisadi və hüquqi islahatlar xarici investisiyaların qeyri-neft sektoruna cəlb edilməsində mübət təsirini göstərməyə başlamışdır.

Tədqiqatlar göstərir ki, Azərbaycanda xidmətlər ticarəti də iqtisadi artımın yaradılmasına müəyyən təsir göstərib. Bu, əsasən regionda böyük nəqliyyat layihələrinin həyata keçirilməsinə görə əldə edilən gəlir

və turizm xidmətlərindən daxil olan vəsaitlər hesabına mümkün olmuşdur. Qeyd edək ki, regional iqtisadi, xüsusilə neft və qaz layihələrinin həyata keçirilməsi Azərbaycanı mühüm nəqliyyat və kommunikasiya qovşaqlarından birinə çevirib. Böyük İpək Yolu, Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu layihələri Azərbaycanın iqtisadi-siyasi mövqeyini və əhəmiyyətini xeyli yüksəldib.

Valyuta məzənnəsinin dəyişməsi də iqtisadi artıma müəyyən təsir göstərir.İnteqrasiya proseslərinin sürətlənməsi, iqtisadi əlaqələrin liberallaşması və enerji resurslarının ixracı hesabına ölkəyə daxil olan valyuta vəsaitlərinin artması Azərbaycanda iqtisadi artıma təsir imkanlarını daha da artırır. Valyuta amili dedikdə əsasən, üç istiqamət üzrə dəyişmənin, yəni Azərbaycan manatı ilə digər valyutalar arasındakı məzənnənin, avro və ABŞ dolları arasındakı nisbətin və Azərbaycanın qeyri-neft məhsullarının əsas idxalçıları olan qonşu ölkələrdə devalvasiya meyllərinin iqtisadi artıma təsiri nəzərdə tutulur. Azərbaycan manatının real dəyərinin dəyişməsi iqtisadiyyatda real və maliyyə sektoruna, tədiyyə balansının vəziyyətinə və xarici borclara ciddi təsir göstərir.

Miqrantların göndərdikləri pul vəsaiti Azərbaycanda iqtisadi artımın yaradılmasında əsaslı rol oynamasa da, müxtəlif aspektlərdən müsbət təsir göstərmişdir. 2010-cu ilin məlumatlarına görə, Azərbaycandan miqrasiya edənlərin sayı 1432.6 min nəfərdir. Bu, ölkə əhalisinin 16%-ni təşkil edir. Miqrantlar əsasən Rusiya, Ukrayna, Qazaxıstan, İsrail, Almaniya və ABŞ-da yaşayırlar. Statistik məlumatlara görə, hazırda Rusiyada 1.3 mln. nəfər Azərbaycan vətəndaşı yaşayır və fəaliyyət göstərirlər. Onların göndərdikləri vəsait Azərbaycanın ÜDM-in 8%-ni təşkil edir.

**4. Xarici ticarət sektorunun Azərbaycan iqtisadiyyatının inkişafına təsiri.** Son illər Azərbaycanın tarazlaşmış sosial-iqtisadi inkişafının təmin edilməsində xarici ticarətin həcmi, nomenklatur strukturu və coğrafiyası böyük rol oynamağa başlayıb. Geniş infrastruktur layihələrinin həyata keçirilməsi və neft-qaz hasilatının artması xarici ticarət dövriyyəsinin artmasında da mühüm rol oynamışdır. Statistik məlumatlara görə, 2012-ci ildə Azərbaycanın xarici ticarət dövriyyəsi 33560.9 dollar təşkil edərək 1991-ci ilə nisbətən 8.39 dəfə, 1995-ci ilə nisbətən 25.72 dəfə, 2000-ci illə nisbətən 11.51 dəfə artıq olmuşdur. Xarici ölkələrdən idxal 9652.9 mln. dollar olub ki, bu da 1991-ci illə müqayisədə 5.13 dəfə, 1995-ci illə müqayisədə 14.46 dəfə, 2000-ci illə müqayisədə isə 8.24 dəfə çoxdur. İxrac olunan mallar isə müvafiq olaraq

1991-ci ilə nisbətən 11.27 dəfə, 1995-ci ilə nisbətən 37.52 dəfə, 2000-ci ilə nisbətən isə13.69dəfə artıb.Xarici ticarət dövriyyəsinin artması isə əhəmiyyətli dərəcədə ÜDM-nin dınamik artımına və ölkənin digər makroiqtisadi göstəricilərinə müsbət təsir göstərmişdir. Statistik məlumatların təhlili göstərir ki, 2005-ci ildən sonra Azərbaycanda iqtisadi artımda əsas rol xarici ticarətə məxsusdur.

Qeyd edək ki, son illər Azərbaycanda ixracın həcminin artmasına və əmtəə ixracının iqtisadi artımda əsas rol oynamasına baxmayaraq, bu sahədə əsaslı problemlər mövcuddur. Xarici ticarət sahəsində əsas problem xarici ticarətin əmtəə, ölkə və regional strukturunda təmərküzləşmə və konsentrasiya riskinin yüksək olmasıdır. Əvvəla, ixrac olunan malların əksəriyyəti ölkənin müqayisəli üstünlüyünə əsaslanmır və istehsal prosesinin nəticəsi deyil. İkincisi, ixrac mallarının nomenklaturu çox azdır. Belə ki, Azərbaycanda ixracın strukturunun əsası neft və neft məhsullarındanibarətdir və cəmi 2-3 çeşid mal ümumi ixracın 80%-dən çoxunu təşkil edir. İxracın əmtəə strukturunun təhlili göstərir ki, mineral yanacaq, neft və neft emalı məhsullarının həm dəyər ifadəsində məbləği, həm də ümumi ixracda xüsusi çəkisi əvvəlki illərlə müqayisədə artıb. Belə ki, mədən sənayesi məhsullarının ümumi ixracda xüsusi çəkisi 1995-ci ildə 58.55% , 2000-ci ildə 85.11%, 2012-ci ildə isə 93.2% təşkil edib. Bu malların xüsusi çəkisinin artmasının əsas səbəbi - neft-qaz layihələri üzrə işlərin yerinə yetirilməsi və hasilatın artmasıdır.

İdxalın strukturunda ərzaq məhsulları, maşın və avadanlıqlar mühüm yer tutur. Kənd təsərrüfatı və ərzaq məhsullarının idxalının xüsusi çəkisinin azalması müsbət meyllərdən biridir. Belə ki, 1995-ci ildə idxalın strukturunda kənd təsərrüfatı və ərzaq məhsullarının xüsusi çəkisi 41.5%-dən 2012-ci ildə 14.94%-ə enmişdir. Bunun əsas səbəbi respublikada kənd təsərrüfatı məhsullarının artması və xaricdən asılılıq səviyyəsinin azalmasıdır. 2001-2012-ci illərdə idxalın əsas hissəsi maşın və avadanlıqların payına düşmüşdür.

Azərbaycanda iqtisadi artımın prioritet istiqamətlərdən biri kənd təsərrüfatı məhsulları istehsalında və ixracında mövcud problemlərin həll edilməsidir.Kənd təsərrüfatının inkişafı iqtisadi artımın təmin edilməsinə, regionların inkişafına, şəhərlə kənd arasında iqtisadi mühitin tarazlaşmasına, miqrasiyanın qarşısının alınmasına, həmçinin ərzaq idxalının azalmasına stimul yarada bilər. Kənd təsərrüfatında ümumidaxili məhsulun artım tempi elə olmalıdır ki, kəndvə şəhərdə adambaşına düşən əlavə dəyərin səviyyəsi bərabər olsun.Bu, miqrasiyanı və idxalı normal

səviyyədə saxlamağa imkan verər. Azərbaycanda kənd təsərrüfatı və ərzaq mallarının xarici ticarətinin təhlili göstərir ki, bu sahənin inkişaf etməsi üçün potensial imkanlar digər sahələrə nisbətən çoxdur. Statistik məlumatlara görə, 2012-ci ildə ölkədən 832.2 mln. ABŞ dolları məbləğində kənd təsərrüfatı və ərzaq malları ixrac olunub. Bu, 2000-ci ilə nisbətən 14.65 dəfə çoxdur. İdxal isə 2012-ci ildə 2000-ci ilə nisbətən 6.5 dəfə artaraq 1442.4 mln ABŞ dolları təşkil edib.

Xarici ticarəti xarakterizə edən əsas göstəricilərdən biri də ixrac və idxal kvotalarıdır. İdxal və ixrac kvotaların müqayisəsi bu sahədə geriləmələrin olduğunu göstərir. Belə ki, 2012-ci ildə ümumi məhsullar üzrə ixrac kvotası 34.78%, qeyri-neft sektoru üzrə isə (qeyri-neft ixrac/qeyri-neft ÜDM) 4.95% olub. 1995-ci ildə bu göstəricilər müvafiq olaraq 38,8%və 12.23% təşkil edib. Digər bir göstərici, xarici ticarət dövriyyəsinin, əsasən də ixracın müəyyən dövr ərzində artım tempi ilə məhsul istehsalının (ÜDM) artım tempi arasındakı nisbət, yəni xarici ticarət dövriyyəsinin elastiklik əmsalıdır. Statistik məlumatlara görə, Azərbaycanda ÜDM 1995-2012- ci illərdə cari qiymətlərlə orta illik 24.66 % , ixrac isə 53.61 % artıb və ixracatın elastiklik əmsalı 1.54 olub. Bu onu göstərir ki, təhlil olunan dövrdə ixrac daxili istehsala nisbətən daha sürətlə artıb.

Azərbaycanda xarici ticarətin problemlərindən biri də fəaliyyət göstərən müəssisələrin az bir hissənin ixrac-idxal əməliyyatları ilə məşğul olmasıdır. Beynəlxalq Maliyyə Korporasiyasının Azərbaycanda fəaliyyət göstərən kiçik və orta müəssisələr, həmçinin fərdi sahibkarlar arasında apardığı sorğunun nəticələrinə görə, onların 98%-i ixrac, 92%-i isə idxal əməliyyatı aparmırlar. Qeyd edək ki, kiçik və orta sahibkarlıq subyektlərinin xarici ticarətdə iştirakının artırılması ixrac və idxal nöqteyi-nəzərindən böyük əhəmiyyət kəsb edir. Belə ki, bu, xammalla müqayisədə emal olunmuş malların ixracını artıra, digər tərəfdən isə, Azərbaycan bazarına daxil olması mümkün olmayan, yaxud da məhdud kəmiyyət və keyfiyyətdə daxil olan malların ölkəyə gətirilməsi zamanı meydana çıxan çətinlikləri aradan qaldıra bilər.

Azərbaycanda ixracın genişlənməsinə mane olan amillərdən biri də ixracın stimullaşdırılmaması, bəzi hallarda ixraca süni əngəllərin yaradılmasıdır. Məsələn, ixrac üçün tələb edilən sənədlərin sayına, maya dəyərinə və ixracın müddətinə görə Azərbaycan qonşu Gürcüstan Respublikasından xeyli geridə qalır. İxrac edilmiş malların nəqliyyat və sənəd-

ləşmə xərclərinin yüksək olması ixrac edilmiş malların maya dəyərinin yüksəlməsinə səbəb olur.

Beləliklə, Azərbaycanda ixracın problemləri kimi aşağıdakıları göstərmək olar:1) yerli müəssisələrin maliyyə imkanları məhdud olduğundan ixrac mallarının tanıdılması və xarici bazarların ciddi araşdırılması həyata keçirilmir; 2) Azərbaycanda böyük ölçülü sifarişləri qarşılaya biləcək müəssisələr məhdud saydadır; 3) xarici ticarət sahəsində ixtisaslı kadrların sayı azdır; 4) ixracat müəssisələrində istehsal və satışda beynəlxalq keyfiyyət standarlarının və idaretmədə korporotiv menecementin tətbiqi həyata keçirilmir; 5) satış sonrası qarantiya və xidmətlər demək olar ki yoxdur; 6) bu müəssisələrin ucuz maliyyə vəsaitlərinə çixiş imkanları yoxdur və milli valyutanın məzənnəsi ilbə-il bahalaşır; 7) yerli istehsalçı müəssisələr yetərli bazar araşdırmaları aparmadan daha ucuz, mənəvi və fiziki cəhətdən köhnəlmiş avadanlıqların idxalına üstünlük verirlər.

**5. Beynəlxalq iqtisadi rəqabətqabiliyyətlilik iqtisadi artımın əsas amili kimi.** Azərbaycanda stabil iqtisadi artıma nail olunması və əhalinin həyat səviyyəsinin yüksəldilməsi ölkənin beynəlxalq mübadilədə daha yaxından iştirak etməsindən,elmi-texniki və informasiya sahələrində mövqelərinin möhkəmləndirilməsindən və qloballaşmanın verdiyi üstünlüklərdən istifadə etməsindən asılıdır. İnteqrasiya proseslərinin sürətlənməsi və qlobal iqtisadi məkanın formalaşması milli təsərrüfatların açıqlıq səviyyəsini xeyli artırır, ölkələrin beynəlxalq əmək bölgüsündə iştirakının xarakterini keyfiyyət cəhətdən dəyişdirir. Bu şəraitdə milli iqtisadiyyatların rəqabətqabiliyyətliliyinin möhkəmləndirilməsi qlobal xarakter daşıyır.

Dünya İqtisadi Forumunun hazırladığı «Qlobal rəqabətqabiliyyətlilik 2013-2014 hesabatında» Azərbaycan əvvəlki illərlə müqayisədə 7 pillə irəliləyərək 39-cu yeri tutmuşdur. Bu nəticəyə görə, ölkəmiz MDB məkanında liderliyini qorumuş, postsovet məkanında isə yalnız Estoniyadan (32) geri qalmışdır. Hesabatda Azərbaycan, Gürcüstan və Ermənistan Ümumi Rəqabət Gücü İndeksinə (GCİ) əsasən müəyyən edilən renkinqdə, müvafiq olaraq 39, 72 və 79-cu yerlərdə qərarlaşıblar. Rəqabətqabiliyyətliliyin ilk meyarı olan Alıcılıq Qabiliyyəti Pariteti (PPP) əsasında hesablanan hər nəfərə düşən ÜDM Azərbaycanda ilbəil artmaqdadır. Hesabatın istinad etdiyi Beynəlxalq Valyuta Fondu tərəfindən dərc edilən Dünya İqtisadiyyatının Perspektivləri (World Economic Outlook) hesabatının məlumatlarına əsasən, Azərbaycan 2012-ci ildə

Alıcılıq Qabiliyyəti Pariteti (PPP) əsasında hesablanan hər nəfərə düşən ÜDM üzrə 148 ölkə arasında 69-cu olub vəölkəmiz iqtisadiyyatı effektivliyə əsaslanan ölkələr sırasına aid edilib. Qeyd edək ki, 2000-ci ildə Azərbaycan bu göstərici üzrə 123-cü yerdə olub. Lakin hesabatda ölkələrin qruplaşdırılmasının ikinci meyarı olan ixracın strukturuna əsasən, Azərbaycan "iqtisadiyyatı effektivliyə əsaslanan ölkələr" qrupuna deyil, "1-ci və 2-ci mərhələlər arasında olan keçid ölkələri" qrupuna aid olur. Belə ki, neft və neft məhsullarının məcmu ixracda payının yüksək olması ölkədə hər nəfərə düşən gəlir prinsipinin təsir çəkisini kölgədə qoyur.

Ümumiyyətlə, 2007-2012-ci illərdə Azərbaycanın rəqabətqabiliyyətliliyinə müsbət və mənfi təsir göstərən amilləri aşağıdakı kimi qruplaşdırmaq olar (Bax: Cədvəl 3.):

Cədvəl 3.

**2007-2012-ci illərdə Azərbaycanın rəqabətqabiliyyətliliyi**

| Müsbət amillər | Mənfi amillər |
|---|---|
| Dinamik iqtisadi artım | İqtisadi artımın neft-qaz sektorundan asılı olması |
| Adambaşına düşən ÜDM-in sabit artımı | Əmək məhsuladrlığı və səmərəlilyin aşağı olması |
| Valyuta ehtiyatları | Xarici investisiyalrın əsasən neft sektoruna cəlb edilməsi |
| Makroiqtisadi idarəetmənin təkmilləşdirilməsi | Əsas fondların fiziki və mənəvi aşınması |
| Yüksək ixtisaslı işçi qüvvəsi | Qeyri- neft sektoru məhsullarının ixracının zəif olması |
| İri həcmli xarici investisiyaların cəlb edilməsi | Qiymətli kağızlar bazarının inikişaf etməməsi |
| Regionda xarici investor kimi fəallığın artması | İnsan kapitalına yönəldilən xərclərin az olması |
| Yoxsulluq səviyyəsinin sürətlə azalması | İnstitusional proseslərin təkmil olmaması |

Ölkənin beynəlxalq rəqabətqabiliyyətliliyini müəyyən edən amilləri bir neçə qrupa bölmək olar. Bunlardan birincisi, ölkədə istehsal amillərinin - torpaq, təbii sərvətlər, işçi qüvvəsi və kapitalın zənginliyidir. Bu amillər ölkənin ayrı-ayrı sahələr üzrə dünya təsərrüfatında ixtisas-

laşmasına şərait yaradır. Azərbaycan dünya bazarında əsasən, öz təbii sərvətləri hesabına iştirak edir vəölkənin ixracında əsas yeri xammal və hasilat sənayesinin məhsulları tutur. Statistik məlumatlara əsasən, Azərbaycanın 2012-ci ildə ixracatının 77.33 %-i xam neftin payına düşür. Bu xam neftin dünya üzrə ixracatının 1.73 %-ni təşkil edir.

İkinci qrup amillər - istehsalın texniki göstəriciləri və əmək məhsuldarlığının səviyyəsidir. Praktika sübut edir ki, makro səviyyədə məhsuldarlıq bilavasitə ayrı-ayrı şirkətlər daxilində əmək məhsuldarlığına təsir edir. İxtisaslı kadrların hazırlanmasına dövlət köməyi, büdcədən elmi-tədqiqat işlərinə ayrılan vəsaitin məbləği, insan inkişafına qoyulan kapital (təhsilə, səhiyyəyə, sosial təminata), yeni texnika və texnologiyaların cəlb edilməsinə şəraitin yaradılması məhsuldarlığın artmasına təsir göstərir. Azərbaycanda əmək məhsuldarlığının aşağı olmasının və dünya standartlarına uyğun mallar istehsal edilməməsinin əsas səbəbi innovasiya fəaliyyətindən zəif istifadədır. 2005-ci ilə qədər post-sovet respublikalarında iqtisadi böhran və bunun nəticəsi olaraq büdcə kəsiri dövlət büdcəsindən innovasiya fəaliyyətinə vəsait ayrılmasına imkan vermirdi. İlk vaxtlar neft sənayesinə xarici investisiya qoyuluşunun artması hesabına innovasiyaya çəkilən xərclər artsa da, sonradan azalmışdır. Statistik məlumatlara əsasən, 2012-cu ildə bütün mənbələr hesabına texnoloji innovasiyalara çəkilən xərclər 9.33 mln. manat olub. Bu, 2005-ci illə müqayisədə 5.71 dəfə azdır. Azalmanın əsas səbəbi, mədənçıxarma sənayesi üzrə innovasiyalara çəkilən xərclərin minimuma (cəmi 778 min manat) enməsidir. Digər mühüm səbəb dövlət mülkiyyətindən özəl mülkiyyətə keçmiş müəssisələrin innovasiyaya kapital qoymağa hələ də maraq göstərməməsi ilə bağlıdır.

2012-ci ildə Azərbaycanda sənaye müəssisələri arasında sorğu əsasında müəyyən edilib ki, innovasiyaya mane olan əsas amillər arasında öz pul vəsaitlərinin kifayət qədər olmaması (22 müəssisə bunu əsas səbəb kimi göstərib), yeniliklərin dəyərinin yüksək olması (13 müəssisə),yüksək iqtisadi risk (9 müəssisə), dövlət tərəfindən maliyyə yardımının yoxluğu (9 müəssisə), təzə məhsullara ödəniş qabiliyyətli tələbin aşağı olması (3 müəssisə) və s. əsas yeri tutur. Bu sahədə digər problem, elmi institutlar və istehsal müəssisələri arasında əlaqələrin zəif olmasıdır.

İstehsalın texniki səviyyəsi və əmək məhsuldarlığı sahəsində digər problem istehsal sahələrində əsas fondların həddən artıq köhnəlməsidir. 2012-ci ildə Azərbaycanda əsas sənaye-istehsal fondlarının aşınması

31.8% olub. Bu göstərici 1998-ci ilə nisbətən aşağı düşsə də (1998-ci ildə köhnəlmə 56.9% olub) bu, əsasən xam neft və qaz hasilatı və xidmətlərin göstərilməsi sahəsində əsas fondların yeniləşməsi hesabına olub. Bu sahədə əsas fondların aşınması 1998-ci ildəki 53.7%-dən 2012-ci ildə 29%-ə düşüb.Ancaq emal sənayesi müəssisələrindəəsas fondların aşınması yenə də yüksəkdir – 53.7%.

Rəqabətqabiliyyətliliyi müəyyən edən üçüncü qrup amillər ölkənin ümumi iqtisadi vəziyyəti ilə bağlıdır. Ölkədə adambaşına düşən ÜDM-in məbləğinin artması, inflyasiyanın aşağı olması, siyasi və hüquqi sistemin sabitliyi, vergi və gömrük tariflərinin aşağı olması, regionlarda infrastrukturun inkişaf etməsi, daxili bazarın həcminin artması, resurslardan səmərəli istifadə edilməsi, rəqabətqabiliyyətli bank sisteminin formalaşması ölkənin beynəlxalq rəqabətqabiliyyətliliyini yüksəldən əsas amillərdəndir. Son illər Azərbaycanda aparılan iqtisadi islahatlar nəticəsində bazar prinsiplərinə əsaslanan iqtisadi sistem yaradılıb. Dünya İqtisadi Forumunun 2013-cü il üzrə hazırladığı rəqabətqabiliyyətlilik göstəricilərində Azərbaycan makroiqtisadi vəziyyətə görə dünyanın 148 ölkəsi arasında 8-cı yerdə olub. Bu onu göstərir ki, beynəlxalq ekspertlər Azərbaycanda iqtisadi uğurların daha böyük olacağını proqnozlaşdırırlar. Lakin Azərbaycanda qanunvericilik bazasının kifayət qədər təkmil olmaması, keyfiyyət sertifikatlarının beynəlxalq standartlarla uyğunsuzluğu, intelektual mülkiyyətin qorunmasındakı çatışmazlıqlar rəqabətqabiliyyətliliyin yüksəldilməsinə mənfi təsir göstərir.

Dördüncü qrup amillərə isə insan kapitalı ilə bağlı amillər daxildir. İnsan kapitalını xarakterizə edən əsas göstərici ölkədə təhsilin səviyyəsidir. Təhsilə sərmayə qoyuluşu həm dövlət, şirkətlər, və işçilər üçün əhəmiyyətlidir. Hökumətlər əhalinin təhsil səviyyəsini yüksəltməklə əmindirlər ki, bu, gələcəkdə dövlətin idarə olunması və milli təhlükəsizliyin təmin edilməsində, sosial-iqtisadi inkişafda əsas rol oynayacaq. Dünya praktikası göstərir ki, inkişaf etmiş ölkələrdə milli gəlirin artımının 60%-i səmərəli təhsil sisteminin və əhalinin savadlılıq göstəricilərinin yuxarı olması nəticəsində mümkün olur. İqtisadi gücün və ölkənin rəqabətqabilliyyətliliyinin yaradılmasında əsas rol insana məxsusdur. Dünya Bankının araşdırmasına görə, ABŞ-ın milli sərvətinin 19%-ni istehsal fondları (bina və qurğular, maşın və avadanlıqlar), 5%-ni təbii ehtiyatlar, 76%-ni isə insan kapitalı təşkil edir. Qərbi Avropada isə bu göstəricilər müvafiq olaraq 23%, 2% və 74% təşkil edir. Həmçinin belə bir qanunauyğunluq var ki, təhsilə çəkilən 1 dollar xərc sonradan 5-

6 dollar gəlir verir. İqtisadiyyatı inkişaf etmiş ölkələrin statistik məlumatları təsdiq edir ki, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı ölkələrində (OECD) 1 il əlavə təhsil, istehsalı 3-6% artırır. 1994-2004-cü illərdə bu ölkələrin əksəriyyətində adambaşına düşən ÜDM-in artımının yarıdan çoxu əmək məhsuldarlığının artması hesabına olub. Əmək məhsuldarlığı isə işçinin bilavasitə təhsilindən asılıdır. İnsan kapitalının əsas göstəricisi olan savadlılığın orta dünya göstəricisindən 1 % artıq olması əmək məhsuldarlığı və adambaşına düşən ÜDM-in səviyyəsinin digər ölkələrdən müvafiq olaraq 2.5% və 1.5% çox olmasına gətirib çıxarır. "İnsan inkişafı hesabatının" məlumatları göstərir ki, təhsil səviyyəsinə görə ilk sıralarda gedən ölkələrdə adambaşına düşən ÜDM digər ölkələrin göstəricilərinə, o cümlədən orta dünya göstəricisinə nisbətən dəfələrlə yüksəkdir. Məsələn, təhsilin səviyyəsi və insan inkişafı indeksinə görə ilk yerlərdə gedən İrlandiyada adambaşına düşən ÜDM bu göstəricilərə əsasən son yerlərdə olan Maliyə nisbətən 39 dəfə çoxdur.

Bu amillər həmçinin, ölkədə orta əmək haqqı və əhaliyə digər sosial ödənişlərin məbləği, təhsil və səhiyyənin səviyyəsindən asılıdır. Həyat səviyyəsinin yüksək olması, bir tərəfdən ölkədə təhsilli və sağlam işçi qüvvəsinin formalaşmasına şərait yaradır, digər tərəfdən isə əhalinin alıcılıq qabiliyyətinin yüksək olmasını, daxili tələbatın artmasını vədaha keyfiyyətli mal və xidmətlərin istehsalını təmin edir. Əhalinin real gəlirləri yüksək olarsa, daha keyfiyyətli mallara tələbat artır.Bu,yerli istehsalçıları ölkə əhalisinin tələbatını ödəmək üçün daha keyfiyyətli mallar istehsal etməyə məcbur edir. Məsələn, rəqabətqabiliyyətlilik reytinqində öndə gedən ölkələrdə (Finlandiya, ABŞ və s.) əhalinin həyat səviyyəsi digər ölkələrə nisbətən dəfələrlə yüksəkdir. Bəzən belə bir fikir yürüdülür ki, ölkədə ucuz işçi qüvvəsinin olması istehsal xərclərinin aşağı düşməsinə səbəb olur və ölkəyə xarici investisiyaların cəlb edilməsi üçün şərait yaradır. Ancaq dünya təcrübəsi göstərir ki, ölkədə ucuz işçi qüvvəsi yeni texnika və texnologiyaların istehsala tətbiqinin qarşısını alır. Çünki investorlar ucuz işçi qüvvəsindən istifadə etdiklərindən istehsal xərclərinin azaldılması və əmək məhsuldarlığının yüksəldilməsi üçün müasir texnika və texnologiyanın tətbiqində maraqlı olmurlar.

Ölkənin rəqabətqabiliyyətliyini müəyyən edən beşinci qrup amillər dövlətin fəaliyyəti ilə bağlıdır. Praktiki olaraq, istənilən dövlətin iqtisadi siyasəti milli rəqabətqabiliyyətliliyi artırmağa yönəlib. Dövlət iqtisadiyyata kapital qoyuluşunu stimullaşdırmaq, vergi sistemini təkmilləşdir-

mək, elmi-tədqiqat işlərini maliyyələşdirmək və s. tədbirlərlə iqtisadiyyatda rəqabətqabiliyyətli iqtisadi strukturlar yaratmağa kömək göstərir.

Ölkənin rəqabətqabiliyyətliliyini müəyyən edən altıncı amil enerji effektivliyinin əldə edilməsidir. Son illər iqtisadi artımın tempinə görə, Azərbaycan dünyanın bütün ölkələrini qabaqlayıb. Beynəlxalq təşkilatlar və müstəqil ekspertlər iqtisadiyyatda baş vermiş bu artımın növbəti illərdə də davam edəcəyini proqnozlaşdırırlar. Azərbaycandakı bu inkişafın təməlini yanacaq-energetika sektoru təşkil etdiyindən, qarşıda duran əsas məsələlərdən biri enerji siyasətinin dünyadakı mövcud tələblərə uyğun yenidən qurulmasıdır. Ümumiyyətlə, dövlətin energetika sahəsində siyasəti ölkədə iqtisadi və sosial inkişafın təmin edilməsində, əhalinin həyat şəraitinin yaxşılaşdırılmasında mühüm rola malikdir. Dünya ölkələrinin təcrübəsi göstərir ki, sabit iqtisadi artım fasiləsiz və keyfiyyətli enerji təminatı halında mümkündür və bütün ölkələrdə enerji siyasəti bu vəzifənin həll edilməsinə yönəldilib.

Qeyd etmək lazımdır ki, 2000-ci ildən başlayaraq Azərbaycanda enerjidən istifadə edilməsi sahəsində müsbət meyllər baş verib. Belə ki, 2000-ci ildə 1 ABŞ dolları ÜDM istehsalına 1.2 kq, 2005-ci ildə 1.06 kq, 2010-cu ildə isə 0,219 kq, 2011-ci ildə 0.190 neft ekvivalenti sərf olunub. Sənayedə isə 1 ton neft ekvivalenti enerji istifadə edilərək yaradılan əlavə dəyər cari qiymətlərlə 2010-ci ildə 2005-ci illə müqayisədə 3 dəfə artıb. Bu irəliləyişlərə baxmayaraq, Azərbaycanda istehsal yüksək enerji tutumludur və enerji istehlakının resurslar üzrə və istehlakçılar üzrə strukturunda problemlər mövcuddur.

Ölkələrin rəqabətqabiliyyətliliyinə təsir göstərən əsas göstəricilərdən biri də nominal və real valyuta məzənnələri, eyni zamanda valyuta məzənnəsi ilə alıcılıq qabiliyyətinin indeksi arasında olan əlaqədir. Bu onu göstərir ki, hansı ölkədə əmtəələrin istehsalı eyni bazarda satıldıqda daha sərfəlidir. Alıcılıq qabiliyyəti indeksinin yüksək olması ölkə iqtisadiyyatının daha rəqabətqabiliyyətli olduğunu göstərir. Adətən, orta səviyyədə inkişaf etmiş ölkələrdə valyuta məzənnəsi alıcılıq qabiliyyəti indeksindən 2 dəfə, aşağı gəlirli ölkələrdə isə 4 dəfə az olur. Əhalinin hər nəfərinə düşən gəlir çox olduqca, valyuta məzənnəsinin alıcılıq qabiliyyəti indeksinə nisbəti aşağı olur. Azərbaycanda bu göstərici 1995-ci ildə 3.79 idi. 2012-ci ildə bu nisbət 1.41 dəfəyədək azalmışdır.

Araşdırmalar göstərir ki,Azərbaycan iqtisadiyyatının rəqabətə davamlılıq qabiliyyətinin qarşısını alan əsas amillərə aşağıdakıları aid etmək olar: ayrı-ayrı rəqabət üstünlükləri potensialının obyektiv olaraq

tükənməsi; istehsalın aşağı elmi-texnoloji səviyyədə olması; istismar edilən avadanlıqların yüksək dərəcədə fiziki və mənəvi aşınması; milli rəqabət üstünlüklərinin inkişafına kifayət qədər investisiyaların qoyulmaması və ya aşağı səviyyədə "innovasiya" investisiyalarının tətbiqi; institusional strukturların lazımi səviyyədə inkişaf etməməsi, kapitalın sahələrarası sərbəst axını üçün effektiv mexanizmlərin formalaşmaması; müasir informasiya texnologiyaları sahəsində infrastrukturun zəif inkişaf etməsi; dövlət tənzimləmə metodlarının az səmərəli olması; korporativ idarəetmənin aşağı keyfiyyətdə olması və s.

Ümumiyyətlə, Azərbaycanda rəqabətqabiliyyətliliyin yüksəldilməsi üçün həyata keçirilməli olan tədbirləri aşağıdakı kimi qruplaşdırmaq olar: 1) Dövlət idarəetmə sisteminin rəqabətqabiliyyətliliyinin yüksəldilməsi mühüm məsələlərdən biridir (dövlət tənzimlənməsi, dövlət xidməti); 2) Biznesin rəqabətqabiliyyətliliyinin yüksəldilməsi, istehsalın səmərəliliyinin artırılması (əmək məhsuldarlığının artırılması, enerji ehtiyatlarından səmərəli istifadə edilməsi), qeyri neft sektorunun inkişafı üçün şərait yaradılması;3) Innovasiyanın genişləndirilməsi; 4) İnsan kapitalının rəqabətqabiliyyətliliyinin artırılması; 5)Milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyini artırmaq üçün M. Porterin klaster təhlilini tətbiq etdikdə tədqiq edilən ölkələrin iqtisadiyyatının xüsusiyyətlərini nəzərə almaq lazımdır; 6) Enerji effektivliyinin artırılması.

**6. İqtisadi açıqlıq səviyyəsinin iqtisadi artımla qarşılıqlı əlaqəsi və Azərbaycanın ÜTT-yə qoşulmasının prinsipləri.** İqtisadi artıma təsir edən ekzogen amillər arasında iqtisadiyyatın açıqlıq və iqtisadi azadlıq səviyyələri mühüm əhəmiyyət daşıyır. Bu baxımdan, iqtisadi açıqlıq səviyyəsi və onun iqtisadi inkişafa təsirinin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir.Açıq iqtisadi siyasət modeli istər daxildə, istərsə də ölkədən kənarda iqtisadi fəaliyyətin liberallaşdırılmasını nəzərdə tutur. Yəni xarici iqtisadi əlaqələrdə liberallaşma daxili iqtisadi sferada azad iqtisadi münasibətlərin yaradılması, mülkiyyət hüququnun qorunması və dövlətin iqtisadiyyata inzibati yolla müdaxiləsinin ləğv olunması iləhəyata keçirilə bilər. Bu proseslər biri-biri ilə qarşılıqlı əlaqəlidir və dünya təcrübəsində elə bir hal yoxdur ki, daxili iqtisadi sferada liberallaşma həyata keçirən bir ölkə xarici iqtisadi fəaliyyətdə proteksianizm tətbiq etsin və ya əksinə. Əsas məsələ dövlətin iqtisadiyyata müdaxiləsinin metodları və səviyyəsidir.

XX əsrin son 20 ilinin statistik təhlili göstərir ki, dünyada beynəlxalq inteqrasiya prosesləri yüksək həddə çatdığı bir dövrdə iqtisadi

açıqlıq dərəcəsi yüksək olan ölkələrdə iqtisadi sabitlik daha möhkəmdir. Bu dövrdə iqtisadiyyatı nisbətən qapalı ölkələrdə ÜDM-in orta illik artım tempi 0.7%, açıq iqtisadiyyatlı ölkələrdə isə 3.2% olmuşdur.

Tədqiqatda ölkənin xarici ticarətinin inkişaf meylləri, onun strukturu və dinamikası, ticarət siyasətinin əsas xüsusiyyətləri, formalaşması və həyata keçirilməsinin institusional sxemi, o cümlədən ikitərəfli və çoxtərəfli ticarət sazişləri, ÜTT-yə üzvlük məsələsi şərh və təhlil olunmuşdur. Burada yerli və xarici ölkə tədqiqatçılarının dünya təsərrüfatının qloballaşması şəraitində açıq iqtisadiyyat problemlərinə, iqtisadi artım və iqtisadi inkişafın dayanıqlığı məsələlərinə, həmçinin, müasir şəraitdə iqtisadiyyatın rəqabətqabiliyyətliliyinə həsr olunmuş əsərlərin sistemli təhlili verilmişdir. Araşdırmaların nəticəsi olaraq AzərbaycanınÜTT-yə qoşulmasının müsbət tərəflərini aşağıdakı kimi qruplaşdırmaq olar: 1) bununla ölkəmiz geniş və zəngin informasiya şəbəkəsinə daxil olur, o cümlədən bu təşkilat vasitəsilə ticarət mübahisələrinin ədalətli yolla həllinə nail olur; 2) Azərbaycan beynəlxalq çoxtərəfli ticarət danışıqlarında tam və bərabər hüquqlu üzv dövlət olaraq iştirak edir və dünya ticarət siyasətində öz maraqlarının qorunması üçün çıxış etmək imkanı yaranır; 3) üzv ölkələrin bazarlarına təhlükəsiz daxil olur, idxal rüsumlarının azaldılması nəticəsində milli bazarlarda rəqabətin yüksəlməsini təmin edir; 4) iqtisadi zəmində yaranan mübahisələrin həllinə dair ÜTT-nin qaydalarından və mexanizmindən istifadə etmək imkanı yaranır; 5) üzv ölkələr bir-birlərinin ərazilərindən təhlükəsiz olaraq tranzit kimi istifadə etmək hüququ əldə edir; 6) istehlakçılara rəqabətin üstünlüklərindən tam istifadə etmək imkanının verilməsi daha geniş seçim və aşağı qiymətlər vəd edir; 7) tariflərin aşağı salınması xammal və materialların, aralıq məhsul və komponentlərin qiymətlərinin aşağı düşməsinə gətirib çıxarır. Nəticədə son məhsul və xidmətlərin maya dəyəri aşağı düşür, istehlak xərcləri azalır; 8) yerli qanunların beynəlxalq qanunlarla uzlaşdırılması və üzv ölkələrin bu sahə üzrə standartlarını tətbiq etməklə iqtisadiyyatda liberallaşmanın və iqtisadi islahatların təsadüfi olmadığını və bu prosesin daha da sürətlənəcəyini bir daha təsdiq edir. Ölkəmizin investisiya və kredit cəlbedicilik riskləri azalır; 9) Azərbaycanda istehsal olunan məhsullar ÜTT-yə üzv olan ölkələrin bazarlarına ixrac olunarkən diskriminasiyaya məruz qalmır; 10) xarici ticarət prosedurlarının sadələşdirilməsi, idxalda şəffaflıq, ixrac əməliyyatlarının uçotunun düzgün aparılması və süni bürokratik əngəllərin qarşısının alınması nəticəsində

gizli ticarət dövriyyəsi və korrupsiya halları azalır; 11) idxal-ixrac əməliyyatlarında prosedur qaydalarının sadələşdirilməsi və şəffaflığın təmin edilməsi planlaşdırılmayan xərclərin azalmasına və sonda malların qiymətinin aşağı düşməsinə gətirib çıxarır; 12) azad rəqabət mühitinin formalaşması daha da sürətlənir, bərabər biznes və qiymət mühiti təmin edilir; 13) idxal rüsumlarının azaldılması yolu ilə milli bazarda rəqabətqabiliyyətlilik artır, yerli istehlakçılar daha ucuz və keyfiyyətli mallar əldə etmək imkanı qazanır; 14) qeyri-neft sektoruna investisiyaların cəlb edilməsi genişlənir; 15) əmtəə nişanlarının, müəllif hüquqlarının qorunması bütün ölkələr tərəfindən qəbul olunmuş qaydalar əsasında həyata keçirilir və s.

ÜTT-yə üzvlük Azərbaycana bəzi üstünlüklər təmin etsə də, bəzi müddəalar müəyyən risklər yarada bilər. Belə ki, yenicə formalaşan yerli istehsalın və milli bazarın xarici rəqabətdən qorunması üçün hökumət tərəfindən proteksionist tədbirlərin həyata keçirilməsi vacibdir. Bu baxımdan, idxal rüsumlarının azaldılması nəticəsində, milli bazarda rəqabətin yüksəlməsi Azərbaycan üçün səmərəli deyildir. Çünki yüksək rəqabət qabiliyyəti olmayan milli məhsullar rəqabətə davam gətirməyərək iflasa uğraya bilərlər.

ÜTT-yə qoşulmanın Azərbaycan iqtisadiyyatına mənfi təsirlərini aşağıdakı kimi qruplaşdırmaq olar: 1) milli bazarda rəqabət mühitinin kəskin artması bəzi yerli müəssisələrin sıradan çıxmasına səbəb olacaq. Hazırda rəqabətqabiliyyətli olmayan, lakin potensial imkanları yüksək olan müəssisələrin bu mühitə adaptasiya olunması xeyli vaxt tələb edə bilər; 2) gömrük rüsumları və vergilərin azaldılması nəticəsində, dövlət büdcəsi gəlirlərində baş verən azalma qısa və orta müddətli problem yarada bilər; 3) qiymətləri dövlət tərəfindən tənzimlənən məhsulların qiymətlərinin sərbəstləşdirilməsi və dünya səviyyəsinə çatdırılması bəzi sənaye müəssisələri və əhali üçün çətinliklər yarada bilər; 4) yerli sənayenin müdafiəsi məqsədilə hökumətin ayırdığı birbaşa, yaxud dolayı subsidiyaların dayandırılması bu sahədə müəyyən çətinliklər meydana çıxara bilər; 5) idxal rüsumlarının azaldılması dövlət büdcəsinə daxil olmaları, ilk illərdə müəyyən qədər azalda bilər; 6) texnologiyaların idxalı üzrə patentlərə görə ödənilən komisyon haqlar sənaye istehsalı xərclərinin artmasına gətirib çıxara bilər və nəticədə, qiymət rəqabətində üstünlük azala bilər; 7) ölkədə dempinq sahəsində bilik və təcrübəyə malik olan yüksək ixtisaslı mütəxəssislər olmasa, daxili bazarda dempinq hallarının sübut olunması qeyri-mümkün olacaq; 8) daxili qiymətlərin

dünya qiymətlərinə uyğunlaşdırılması istehlakçıların xərclərinin artması-na və sosial-iqtisadi vəziyyətin pisləşməsinə gətirib çıxara bilər.

Amma bütün mənfi tərəflərinə baxmayaraq ÜTT-yə qoşulma Azərbaycan iqtisadiyyatı üçün əhəmiyyətlidir və bu proses ölkəmizin dünya iqtisadiyyatına daha sıx və səmərəli inteqrasiya olunmasını təmin edəcək. Azərbaycan dünyanın 150 ölkəsini özündə birləşdirən və dünya ticarətinin 95%-i üzv ölkələrinin payına düşən bir təşkilatdan kənarda qala bilməz. Ancaq Azərbaycanın bu təşkilata üzv olması prosesi elə həyata keçirilməli və ölkəmizin təşkilata qoşulma statusu elə müəyyən olunmalıdır ki, nəticədə milli iqtisadiyyat daha çox fayda əldə etsin.

**7. Azərbaycanda iqtisadi artımın təmin edilməsində xarici maliyyələşmə mənbələrinin əsas istiqamətləri.** 90-cı illərin ortalarından başlayaraq Azərbaycan Respublikasının iqtisadiyyatına investisiyaların cəlb olunması məqsədilə hökumət tərəfindən "açıq qapı" siyasəti həyata keçirilir. Xarici investisiyaların, müasir texnologiyaların və avadanlıqların, idarəetmə təcrübəsinin ölkə iqtisadiyyatına cəlb edilməsi yolu ilə yüksək keyfiyyətli, rəqabətqabiliyyətli məhsulların istehsal edilməsi Azərbaycan dövlətinin müəyyən etdiyi iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir.

Müstəqil dövlət olduqdan sonra respublikada investorların hüquq və mənafelərinin qorunması, mülkiyyətin toxunulmazlığı, yerli və xarici sahibkarlara eyni iş şəraitinin yaradılması, əldə edilmiş mənfəətdən maneəsiz istifadə olunması ilə bağlı mühüm qanunlar qəbul edilmişdir. Bundan başqa Azərbaycan hökuməti bir sıra xarici ölkələr ilə ikiqat vergi tutmanın aradan qaldırılması və investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında sazişlər imzalanmışdır. Ümumiyyətlə, Azərbaycanda xarici investisiyaların cəlb edilməsi üçün bütün prosedurlar sadələşdirilib. Hazırda xarici investisyalı müəssisələrin açılması üçün cəmi 7 gün vaxt tələb olunur və bunun üçün lazım olan prosedurların sayı 7-dir. Müqayisə üçün qeyd edək ki, region ölkələrində bu göstəricilər müvafiq olaraq 22 və 8-dir.

Bütün tədbirlər nəticəsində Azərbaycan iqtisadiyyatına qoyulan xarici investisiyaların həcmi sürətlə artmışdır. 1991-ci ildə respublika iqtisadiyyatına xarici investisiya qoyuluşu olmadığı halda, iqtisadiyyata yönəldilmiş xarici investisiyaların həcmi 2000-ci ildə 927 mln. ABŞ dolları, 2005-ci ildə 4893.2 mln., 2010-cu ildə 8247.8 mln.,2012-ci ildə isə 10314 mln. ABŞ dollarıtəşkil etmişdir. Ümumilikdə isə 2000-ci ildə investisiya qoyuluşunun 64.3%-i, 2005-ci ildə 68.7%-i, 2010-cu ildə

47.52%-i, 2012-ci ildə 40.01%-i məhz xarici investorların vəsaitləri hesabına olmuşdur.

Azərbaycanda xarici investisiyalı və birgə müəssisələrin fəaliyyətinin təhlili göstərir ki, xarici investisiya qoyuluşu nəticəsində iqtisadiyyatın bütün sahələrində istehsalın həcmi artmışdır. 1994-cü ildə dünyanın bir çox şirkətləri üzrə Xəzər Dənizinin Azərbaycan sektorunda neft-qaz yataqlarının işlənməsi üzrə müqaviləyə uyğun olaraq investisiya qoyuluşu nəticəsində 2007-ci ildə son 150 ildə ilk dəfə olaraq rekord həcmdə 41.34 mln. ton neft hasil edilib. Növbəti illərdə də, neft hasilatı daha da artaraq 2009-cu ildə 50.42 mln. ton, 2010-cu ildə 50.84 mln. ton, 2012-ci ildə isə hasilat bir qədər azalaraq 43.37 mln. ton olub. Eyni zamanda təbii qaz hasilatı da ilbəil artır. 2012-ci ildə təbii qaz hasilatı 2000-ci ilə nisbətən 4.84 dəfə artaraq 26796 mln. kub metr təşkil etmişdir.

Xarici investisiyaların cəlb edilməsinin əhəmiyyəti işçilərin sosial vəziyyətində də özünü göstərir. 2012-ci ilin məlumatına görə, respublika üzrə qeyri-dövlət sektorunda orta aylıq əmək haqqı 500.3 manat təşkil edirsə, xarici investisiyalı müəssisələrdə 2.48 dəfə çox – 1241 manat olub. Mədənçıxarma sənayesində orta əmək haqqı xarici investisiyalı müəssisələrdə ölkə üzrə orta əmək haqqı göstəricisindən 28%, emal sənayesində 67%, tikintidə70% çoxdur. Ancaq burada mənfi amillərdən biri xarici və müştərək müəssisələrdə işləyən işçilərin yerli işçilərlə müqayisədə daha çox əmək haqqı almasıdır. Statistik məlumatlara görə, 2012-ci ildə əcnəbilərin əmək haqqı yerli işçilərlə müqayisədə 6.37 dəfə, o cümlədən mədənçıxarma sənayesində 8.18 dəfə, emal sənayesində 5.22 dəfə, tikinti sənayesində 4.32 dəfə çoxdur.

Xarici investisiyaların cəlb edilməsi ölkə ərazisində əmək məhsuldarlığının və səmərəliliyin artmasında da xüsusi əhəmiyyətlidir. Xarici investisiyalı müəssisələr özləri ilə yeni texnika və texnologiya gətirməklə yerli müəssisələrlə müqayisədə daha məhsuldar fəaliyyət göstərirlər. Statistik məlumatlara görə,2012-ci ildə xarici və müştərək müəssisələrdə 1 işçiyə düşən istehsalın həcmi 384071 manat, sənayedə 1040847.2 manat, kənd təsərrüfatında18029 manat, tikintidə 109164 manat təşkil edirsə, Azərbaycanda bu göstərici 50283.7 manat, sənayedə 190967 manat, kənd təsərrüfatında 2894 manat, tikintidə isə 69211 manatdır. Bu göstəricilər onu göstərir ki, xarici investisiyalı müəssisələr digərlərinə nisbətən daha səmərəli işləyir.

Ancaq yuxarıda göstərilən bütün müsbət amillərə baxmayaraq xarici investisiya qoyuluşları sahəsində əsaslı problemlər mövcuddur. Xarici investisiyalar üzrə əsas risklərdən biri xarici və müştərək müəssisələrin regional və sahələr üzrə qeyri-bərabər bölgüsüdür. Belə ki, xarici investisiyalı müəssisələr əsasən Bakı şəhərində və hasilat sənayesində fəaliyyət göstərirlər. Statistik məlumatlara görə, 2010-cu ildə fəaliyyət göstərən xarici investisiyalı müəssisələrin 89,36%-i (975 müəssisə), 2012-ci ildə isə 88.57%-i (938 müəssisə) Bakı şəhərində fəaliyyət göstərirlər. Bu müəssisələrin yerinə yetirdikləri işlərin və göstərdikləri xidmətlərin həcmi müvafiq olaraq 2010-cu ildə 23.44 mlrd. manat, 2012-ci ildə 28.61 mlrd. manat olub ki, bu da ümumi işlərin müvafiq olaraq 97.62% və 97.21%-ni təşkil edir. Mədən sənayesində fəaliyyət göstərən müəssisələrin yerinə yetirdikləri işlərin ümumi işlərdə xüsusi çəkisi 2010-cu ildə 79.3%, 2012-ci ildə isə 83.04% olub.

Həmçinin əsas kapitala yönəldilmiş sərmayələrin çox az hissəsi kənd təsərrüfatına, istehsal və emal sahələrinə, ticarət sektorlarına istiqamətləndirilir. Statistik məlumatlara görə, 2012-ci ildə sənayedə əsas kapitala yönəldilən xarici investisiyalar 2668 mln. manat təşkil etsə də, emal sənayesində əsas kapitala cəmi 0.1 mln. manat xarici investisiya qoyulub. Müqayisə üçün qeyd edək ki, 2005-ci ildə bu məbləğ 35.9 mln. manat olub. Ticarət və qeyri-neft sektorlarında əsas kapitala yatırılan investisiyaların məhdudluğu bu sektorlarda müasir texnologiyaların, yeniliklərin və yeni biznes imkanlarının çatışmazlığına, həmçinin yeni idarəetmə üsullarının tətbiqinin və müəssisələrin restrukturizasiyasının ləngiməsinə gətirib çıxarır. Bu isə, öz növbəsində, bu sektorların rəqabətqabiliyyətliliyinə mənfi təsir göstərir. Müqayisə üçün qeyd edək ki, dünyada bütünlükdə xarici investisiyaların cəmi 22%-i hasilat sənayesinə, 48%-i emal sənayesinə və 30%-i xidmət sektoruna yönəldilir.

Xarici investisiyaların cəlb edilməsi baxımından, Azərbaycan iqtisadiyyatının üstünlüklərini 2 qrupda cəmləmək mümkündür: 1-ci qrup amillər bütün inkişaf etməkdə olan ölkələrə, o cümlədən Azərbaycana xas olan üstünlüklər, 2-ci qrup isə birbaşa Azərbaycana aid oaln üstünlüklərdir. Azərbaycanın inkişaf etməkdə olan ölkələrə aid olan üstünlükləri aşağıdakılardır:

1) İnkişaf etməkdə olan ölkə olduğuna görə inkişaf potensialı inkişaf etmiş ölkələrlə müqayisədə dəfələrlə çoxdur. Daha çox inkişaf daha çox gəlir əldə etmək imkanı deməkdir. Bu prinsip dünyadakı transmilli kompaniyaları daha çox inkişaf etməkdə olan ölkələrə

investisiya qoymağa həvəsləndirir. 2) Yerli firmalar zəif inkişaf etdiyindən daxildə rəqabət güclü deyil. 3) İnkişaf etməkdə olan ölkələr yüksək risk qarşılığında daha çox gəlir əldə etmək imkanına malikdirlər. 4) İnkişaf etməkdə olan ölkələrdə xarici investorlar bürokratik əngəllərlə yerli investorlarla müqayisədə daha az üzləşirlər.

Birbaşa Azərbaycana  xas olana üstünlüklər isə aşağıdakılardır:

1) Azərbaycan əlverişli coğrafi-nəqliyyat mövqeyinə malik olması ilə yanaşı, inkişaf etmiş beynəlxalq əhəmiyyətli nəqliyyat şəbəkəsi (hava, su, dəmiryolu və avtomobil yolları, neft qaz kəmərləri) vardır ki, bu da xariclə intensiv əlaqələr yaratmaq imkanını asanlaşdırır;2) zəngin təbii-iqtisadi potensiala (zəngin mineral-xammal ehtiyatları, məhsuldar torpaq sahələri, əlverişli təbii-iqlim şəraiti, ixtisaslı və ucuz işçi qüvvəsi və s.) malikdir;3) bir sıra müasir texniki-iqtisadi bazaya malik sənaye müəssisələri, istehsal sahələri və infrastruktur obyektləri mövcuddur;4) güclü elmi potensial və ixtisaslı kadr ehtiyatı mövcuddur;5) xarici investisiyaların cəlb olunması və onun müdafiəsi, xarici iqtisadi əlaqələrin liberallaşdırılması və inkişafı haqqında bir sıra vacib qanunların və hüquqi-normativ aktların qəbul olunması və onların həyata keçirilməsi üçün təşkilati-idarəetmə mexanizminin yaradılması; 6) dünyanın bir sıra nüfuzlu xarici şirkətləri ilə birgə biznes fəaliyyəti ilə məşğul olan müəssisələrin yaradılması; 7) Azərbaycan Respublikasının dünyanın aparıcı ölkələri ilə dövlətlərarası iqtisadi əlaqələrə dair müvafiq müqavilələrin bağlanması, beynəlxalq müqavilə və sazişlərə qoşulması, beynəlxalq və regional iqtisadi birliklərə və təşkilatlara daxil olması və s.

Hazırda ölkəmizin malik olduğu bu üstünlüklərdən istifadə edərək xarici investisiyaların cəlb edilməsini sürətləndirmək, xüsusən biznesin inkişafına mane olan məhdudiyyətləri aradan qaldırılmaq lazımdır. Qeyd edək ki, xarici investorlar keçid iqtisadiyyatlı ölkələrə investisya qoyarkən əsasən 3 əsas riski qiymətləndirirlər: makro-iqtisadi sabitlik-iqtisadi artım, inflyasiya, valyuta məzənnə riski və.s., instituional risk – xarici investisya mühiti, vergi rejimi, hüquqi tənizmləmə və korrupsiyanın səviyyəsi, siyasi risklər – siyasi sabitlik və azadlıqlar və.s

Azərbaycanın ümumi investisiya siyasəti hazırlanarkən göstərilən risklər minimuma endirilməli, Qərbi Avropa ölkələrindən olan investorların maraqları daha yüksək dərəcədə nəzərə alınmalı, daxili istehsal və istehlak bazarına investorların daxil olmasına şərait yaradılmalı, istehsal sahəsinə birbaşa xarici investisiyaların 2 ildən artıq müddətə cəlb edilməsi stimullaşdırılmalı, xarici investorlara kapital qoyuluşu üçün biz-

nes mühitin cəlbedici olduğu haqqında tam məlumat verən, beynəlxalq təşkilatlar tərəfindən müəyyən edilən reytinqlərin artırılması istiqamətində iş aparan dövlət (regional) agentlikləri yaradılmalıdır.

Ümumiyyətlə, ölkə iqtisadiyyatına xarici investisiyaların cəlb edilməsi üçün aşağıdakı tədbirlərin görülməsi zəruridir: 1) xarici investisiyalarda emal sənayesinin, xüsusilə qeyri-neft sektorunun payının artırılması tədbirlərinin həyata keçirilməsi; 2) qeyri-neft sektoruna investisiyaların cəlb edilməsini yaxşılaşdırmaq məqsədilə stimullaşdırıcı xarakterli hüquqi-iqtisadi mexanizmlərin tətbiqi; 3) əsas istehsal fondlarının sürətli fiziki və mənəvi köhnəlmə səviyyəsini nəzərə alaraq, investisiya qoyuluşlarının texnoloji strukturunda mütərəqqi dəyişikliklərə nail olmaq istiqamətində tədbirlər görülməlidir. Xarici investisiyalarda yeni texnika və texnologiyaları özündə əks etdirən investisiyalara daha çox üstünlük verilməlidir. 4) Azərbaycanın ÜTT-yə üzvlüyünün sürətləndirilməsi; 5) regional inteqrasiya bloklarında fəal iştirak etmək, həmçinin region ölkələri ilə ikitərəfli müqavilə imzalayaraq xarici ticarətlə bağlı qarşılıqlı güzəştlər əldə etmək.Azərbaycan iqtisadiyyatında investisiya aktivliyinin yüksəlməsi üçün investisiyaların innovasiyalarla müşayiət olunması, milli istehsal sahələrində yüksək texnologiyaların tətbiqinin genişlənməsi, maşınqayırma sektorunun modernləşdirilməsi, bank və sığorta sahələrində olan artıq likvidliyin real sektorun investisiya layihələrinə transformasiyasını təmin etmək üçün səmərəli tədbirlər həyata keçirilməlidir.

Dissertasiyada Azərbaycanın 1995-2012-ci illər ərzində xarici borcların ÜDM-də xüsusi çəkisi, xarici borcların mal və xidmətlərin illik ixracının həcminə nisbəti, xarici borcların məbləğinin dövlət gəlirlərinə nisbəti, valyuta ehtiyatlarının illik xarici borc ödənişlərinə nisbəti, xarici borca xidmət və ÜDM-in dəyişmə templəri arasındakı əlaqə və s. göstəricilərin təhlil edilir. Qeyd edilir ki, xarici borc problemi xarici iqtisadi əlaqələr sistemində və onun tənzimlənməsi mexanizmində həlledici yer tutduğundan, dünyanın bir çox ölkələrində xarici borclar bəzən daxili maliyyə mənbələrini üstələyir. Xarici borclar keçmişdə ancaq fövqəladə zəruri hallarda cəlb edilirdisə, müasir dövrdə ölkələrin iqtisadi inkişafının maliyyələşdirilməsi üçün əsas mənbə hesab edilir. Dünya praktikası göstərir ki, xarici borc keçid iqtisadiyyatlı ölkələrin xarici iqtisadi strategiyasının formalaşdırılmasında mühüm rol oynayır.

Təhlil göstərir ki, Azərbaycanda xarici borcların mövcud səviyyəsi təhlükəli həddə olmasa da, ölkəyə kreditlər əvəzinə birbaşa investisiya

cəlb edilməsinə üstünlük verilməlidir. Digər tərəfdən, alınmış kreditlərdən daha səmərəli və təyinatı üzrə istifadə olunmasına nail olunmalıdır. Xarici borcların idarə edilməsində əsas məsələ - ölkənin idarə edilə biləcək borc yükünün müəyyən edilməsi, borc qalıqlarının nəzarətdə saxlanilması və dəqiq borclanma metodlarının müəyyən edilməsidir. Uzunmüddətli iqtisadi artım ssenariləri ilə xarici borc qalığı dəyişmələrin proqnozlaşdırılması davamlı olaraq həyata keçirilməli, hökumət bu sahədəki riskləri dəqiq qiymətləndirməlidir. Burada əsas məsələlərdən biri ölkədə pul-kredit siyasəti həyata keçirən Mərkəzi Bank və xarici borcların idarə edilməsi ilə birbaşa məşğul olan Maliyyə Nazirliyi arasında koordinasiyanın güclü olması və bu sferada səlahiyyətlərin dəqiq müəyyən edilməsidir.

**8.Valyuta-məzənnə siyasətinin iqtisadi artımla qarşılıqlı əlaqəsi və təkmilləşdirilməsi istiqamətləri.** Azərbaycan iqtisadiyyatının dayanıqlı inkişafı və dünya iqtisadiyyatına səmərəli inteqrasiyasısəmərəli strateji valyuta-maliyyə siyasətinin seçilməsi zərurətini yaradır. Bu baxımdan, Azərbaycanın dünya ölkələri ilə valyuta-maliyyə əlaqələrinin genişləndirilməsi və Azərbaycanın xarici ölkələrlə valyuta əlaqələrinin mövcud vəziyyətinin öyrənilməsi əhəmiyyətlidir. Digər tərəfdən, neft-qaz layihələrinin həyata keçirilməsi nəticəsində ölkəyə valyuta axının genişlənməsi, bu vəsaitlərin səmərəli idarə olunması və istifadə edilməsi Azərbaycanda həyata keçirilən valyuta siyasətinin istiqamətindən çox asılıdır.

Mərkəzi Bank 11 mart 2008-ci il tarixindən manatın dəyərinin valyuta səbətinə nəzərən sabit saxlanılması konsepsiyasının reallaşdırılmasına başlamaq haqqında qərar qəbul etmişdir. Qərara alınmışdır ki, ilkin olaraq ABŞ dolları və avrodan ibarət ikivalyutalı səbət tətbiq olunsun və bu valyutaların səbətdə paylarının dəyişməsi mərhələlərlə həyata keçirilsin. Mərkəzi Bank ölkənin xarici iqtisadi əlaqələrində dünyanın aparıcı valyutalarının rolunu nəzərə alaraq, son mərhələdə səbətin optimal strukturuna nail olmağı nəzərdə tutur. Səbətə görə, manatın kursu müəyyən ediləndə 90% dollar, 10% isə avronun təsiri əsas götürülür. Qeyd etmək lazımdır ki, bu qayda ilə əlaqədar olaraq, dolların kursunda kiçik dəyişiklik baş verən kimi manatın məzənnəsinə təzyiqlər artır və Mərkəzi Bank bazara müdaxilə etməli olur. Fikrimizcə, bunu nəzərə alaraq, valyuta səbətində avronun çəkisi 10%-dən 30-40%-ə yüksəldilməsi, dolların isə çəkisinin 60-70%-ə salınması daha

məqsədəuyğun ola bilər. Məsələn, Rusiyada dollar və avronun çəkisi 55/45 nisbətində götürülür.

Hesablamalara əsasən, manatın bahalaşmasının qeyri-neft ÜDM-nə təsiri əsasən iki istiqamətdə olur: birincisi, manatın qeyri-neft sektoru üzrə ümumi ticarət dövriyyəsi çəkili real effektiv məzənnəsinin möhkəmlənməsi bir rübdən sonra qeyri-neft sektoruna öz mənfi təsirini göstərməyə başlayır. Bu təsir qeyri-neft ÜDM artımının 1.48% zəifləməsi kimi nəzərə çarpır. Bir ilə qədər bu təsir daha da yüksələrək qeyri-neft ÜDM-i artımının 1.85% zəifləməsi ilə nəticələnir.

Aparılan təhlillər göstərir ki, Azərbaycanda milli valyutanın real məzənnəsinin yüksəlməsi iki ssenari üzrə baş verir: 1) Mərkəzi Bank aktiv şəkildə ölkəyə daxil olan valyutanı alıb əvəzində dövriyyəyə manat kütləsi buraxır. Nəticədə, inflyasiya artır və manatın nisbi sabit məzənnəsi saxlanılmaqla onun real məzənnəsi güclənir; 2) Mərkəzi Bank valyuta satışı əvəzinə ölkədə dollar kütləsinin artımına üstünlük verir.Bu, sabit qiymət fonunda milli valyutanın real məzənnəsinin güclənməsinə gətirib çıxarır.

Fikrimizcə, Azərbaycanda real valyuta məzənnəsinin bahalaşmasının əsas səbəbləriniisə belə qruplaşdırmaq olar: a) Neft Fondunun dövlət büdcəsinə transferləri; b) Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin mənfəət vergisinin ABŞ doları ilə ödənilməsi; c) Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin xarici valyutada gəlirləri; d) Birbaşa və yaxud dolayı dövlət zəmanəti altında dövlət müəssisələrinin xarici borcları; e) Azərbaycanın kommersiya banklarının xarici kreditorlardan aldıqları borclar; f) Dövlətin xarici kreditorlardan aldığı borclar. Bütün bunlar ölkədə dollar təklifini artırır və nəticədə manatın bahalaşması prosesi baş verir.

Valyuta-kredit siyasəti elə qurulmalıdır ki, dünyada baş verən maliyyə böhranı və dünyanın maliyyə bazarındakı dalğalanmalar Azərbaycana az təsir göstərsin. Azərbaycanda həyata keçirilən valyuta-kredit siyasətinin əsas məqsədi qlobal təsirlərin minimuma endirilməsidir. Belə ki, son illər Azərbaycanın əsas iqtisadi partnyoru olan Avropa Birliyi ölkələrində maliyyə sisteminin zəifləməsi, dünyanın aparıcı valyutalarının məzənnələrində baş verən ciddi dəyişikliklər dünya iqtisadiyyatında yeni maliyyə böhranının baş vermə ehtimalını yaradır.

Valyuta siyasətinin formalaşmasının digər aspekti, ölkəyə daxil olan neft gəlirlərinin idarə edilməsidir. Son illər Azərbaycanda neft gəlirlərinin artması ilə valyuta vəsaitlərinin ölkəyə daxil olması bu vəsait-

lərin optimal idarə edilməsini zəruri edir. Valyuta gəlirlərinin ölkə iqtisadiyyatına mənfi təsirlərinin minimuma endirilməsi valyuta-məzənnə siyasətinin səmərələşdirilməsini tələb edir. Aparılmış təhlillər göstərir ki, Azərbaycanda real valyuta məzənnəsinin iqtisadi artıma pozitiv təsirini artırmaq üçün manat müəyyən qədər devalvasiya edilməlidir. Çünki manatın ucuzlaşması qeyri-neft sektoru məhsullarının rəqabətqabiliyyətlilyini artıraraq, ixracı stimullaşdıracaq və nəticədə, iqtisadi artımın sürətlənməsinə gətirib çıxaracaq. Azərbaycanda rəqabətqabiliyyətliliyin valyuta-məzənnə tərəfinin təmin edilməsində əsas məsələlərdən biri də ölkəyə daxil olacaq neft gəlirlərinin biznesin və ölkənin rəqabətqabiliyyətliliyinin artırılmasına yönəldilməsidir.

Valyuta-məzənnə siyasətinin formalaşması zamanı mühüm məsələlərdən biri də valyuta məzənnəsi sistemlərinin müəyyən edilməsidir. Maliyyə böhranları ilə üzləşmiş ölkələrin təcrübəsi göstərir ki, böhrana girən ölkə öz daxili gücü hesabına problemdən çixa bilmirsə, bu ölkənin təkrar böhran yaşaması ehtimalı böyük olur.

Ümumiyyətlə, sabit valyuta məzənnə siyasətini şərtləndirən amillərin təhlili göstərir ki, Azərbaycanda tənzimlənən valyuta sisteminin tətbiq edilməsi daha məqsədəuyğundur. Belə ki, dünya təcrübəsi göstərir ki, iqtisadi açıq ölkələrdə daha çox tənzimlənən sabit valyuta məzənnəsi siyasəti aparılır. Çünki bu ölkələrin valyuta məzənnəsi daha çox xarici təsirlərə məruz qaldığından, dalğalanan valyuta məzənnəsi daxili və xarici amillərin təsiri ilə tez-tez dəyişir. Azərbaycanın xarici ticarət dövriyyəsinin ÜDM-də xüsusi çəkisi yüksək olduğundan və ölkə iqtisadiyyatı daha çox xarici təsirlərə məruz qaldığından, Mərkəzi Bank yaxın perspektivdə tənzimlənən valyuta məzənnə siyasətini davam etdirməlidir.

İqtisadiyyatda diversifikasiyanin mövcud vəziyyəti də valyuta məzənnə siyasətinin müəyyən edilməsində xüsusi əhəmiyyətə malikdir. Yüksək diversifikasiya olunmuş iqtisadiyyatlarda adətən sərbəst valyuta siyasəti yerinə yetirilir. Azərbaycanda isə iqtisadiyyatın əksər hissəsi neft-qaz sektoru hesabına formalaşdığından, hələ ki, sərbəst valyuta məzənnəsi siyasəti yerinə yetirmək mümkün deyil.

Maliyyə bazarının inkişaf səviyyəsi də valyuta məzənnə siyasətinin müəyyən edilməsində mühüm rol oynayır. İnkişaf etmiş maliyyə bazarına malik olan ölkələr adətən sərbəst valyuta məzənnə siyasəti həyata keçirirlər. Azərbaycanda isə maliyyə və qiymətli kağızlar bazarı inkişaf etmədiyindən, tənzimlənən sabit valyuta məzənnəsi siyasəti daha

məqsədəuyğundur. Digər bir amil, dollarlaşma səviyyəsidir. Dollarlaşma səviyyəsi yüksək olan ölkələrdə adətən tənzimlənən sabit valyuta məzənnəsi siyasəti mövcud olur. Satatistik məlumatlara əsasən, Azərbaycanda xarici valyutalarda depozitlərin ümumi depozitlərdə xüsusi çəkisi 45% təşkil edir. BVF-in hesablamalarına görə xarici valyutadakı əmanətlərinin pul kütləsində xüsusi çəkisi 35% olduqda, dollarlaşma səviyyəsi yüksək hesab edilir. Bu baxımdan, Azərbaycanın maliyyə sistemi hələ də dollarlaşmış hesab edilir və buna görə də, sərbəst valyuta siyasətinin həyata keçirilməsi mümkün deyil.

Ölkədəki inflyasiya səviyyəsi partnyor ölkələrdəki inflyasiya səviyyəsindən yüksək olduqda və inflyasiya təzyiqləri artdıqda, tənzimlənən valyuta məzənnə siyasətinə daha çox ehtiyac duyulur. Azərbaycanda mövcud inflyasiya səviyyəsi partnyor ölkələrdən çox olduğundan tənzimlənən sabit valyuta məzənnə siyasətinin həyata keçirilməsi hazırda daha optimaldır.

Azərbaycanda valyuta qanunvericiliyində bir sıra müsbət irəliləyişlər əldə olunmuşdur. Hazırda Azərbaycan MDB ölkələri arasında valyuta sferasının liberallaşdırılması sahəsində öncül sıralarda gedir. Lakin Azərbaycanda xarici iqtisadi əlaqələrin və bütünlükdə iqtisadiyyatın inkişafına mane olan valyuta məhdudiyyətləri hələ də qalmaqdadır. Cari valyuta əməliyyatlarına tətbiq edilən məhdudiyyətlər yumşaldılsa da, valyutaların hərəkətinin lisenziyalaşdırılması, ölkənin hüquqi və fiziki şəxslərinə valyutanın aparılması və köçürülməsi üçün sərbəst rejimin olmaması, yerli rezidentlərə xarici banklarda hesablar açılmaması, qiymətli kağızlar əldə edilməsinə icazə verilməməsi və s. kimi bəzi məhdudiyyətlər aradan qaldırılmayıb. Bu baxımdan, sonrakı illərdə Azərbaycanın maliyyə-valyuta əlaqələrinin inkişaf etdirilməsi üçün mühüm addım mövcud valyuta məhdudiyyətlərinin aradan qaldırılması ola bilər.

**9. Azərbaycanda iqtisadi artımın keyfiyyət dəyişiklikləri və xarici iqtisadi əlaqələrin modernləşməsi.** Azərbaycanın xarici iqtisadi əlaqələrinin təhlili göstərir ki, dövlətin xarici iqtisadi siyasət strategiyasında ölkənin dünya təsərrüfatı sisteminə səmərəli inteqrasiya olunması, davamlı yüksək artım, milli iqtisadiyyatın rəqabətqabiliyyətinin artırılması və bütövlükdə iqtisadi fəaliyyət üstünlüklərindən tam istifadəedilməsi və s. məsələlərə diqqət artırılmalıdır. Qlobal iqtisadi və maliyyə böhranının nəticələri də nəzərə alınmaqla, bu sahədə dövlət siyasətin təkmilləşdirilməsinə böyük ehtiyac vardır. Bu baxımdan iqtisadiyyatı xammal ixracından asılı olan ölkələrin təcrübəsinin də öyrənilməsi

əhəmiyyətlidir. Xammal ixrac edən ölkələrdə inkişafın 3 keyfiyyət modelini müəyyən etmək olar:1) müasir qərb cəmiyyətlərinin institutlarını özündə saxlayaraq, əsasında xammal yönümlü istiqamət duran və iqtisadiyyatın müxtəlif sahələr üzrə diversifikasiya olunmasına əsaslanan, diversifikasiya modeli; 2) iqtisadiyyat diversifikasiya olunsa da, neft sektorunun daha çox üstünlük təşkil etdiyi bazar iqtisadiyyatına əsaslanan, resurs-diversifikasiya modeli; 3) iqtisadiyyatı az diversifikasiya olunan, əsasən neftlə bağlı iqtisadiyyata söykənən xammal modeli.

Araşdırmalar təsdiq edir ki, ölkə iqtisadiyyatının neft və qaz ixracı üzərində qurulma senarisi ÜDM-in dinamik və davamlı artımının təmin olunması baxımından özünü doğrultmur. 2008-ci ilin maliyyə böhranı ilə əlaqədar olaraq dünya birjalarında təbii resursların, xüsusilə neftin qiymətinin kəskin aşağı düşməsi, iqtisadiyyatını xammal ixracı üzərində quran ölkələr üçün ciddi təhlükələrin olduğunu bir daha göstərdi. Dünya xammal bazarı həcminə və artım tempinə görə yüksək texnologiya bazarından əhəmiyyətli dərəcədə geri qalır və bu fərq ildən-ilə daha da artır. Buna görə də, neft-qaz ixracından daxil olan gəlirləri elmi-texniki tərəqqini müəyyən edən digər sahələrin, o cümlədən maşın və avadanlıqlar istehsalının, cihazqayırmanın, radio və telekommunikasiya vasitələrinin, xüsusilə kənd təsərrüfatı sahəsinin və emal sənayesinin inkişafına yönəltmək lazımdır. Burada əsas istiqamət xarici iqtisadi əlaqələrin modernləşməsi olmalıdır. Xarici iqtisadi əlaqələrin modernləşməsi Azərbaycanın dünya iqtisadiyyatında maraqlarını təmin edən və yerli biznes strukturlarının dünya bazarında rəqabətqabiliyyətliliyini artıran institutların formalaşmasında, xarici iqtisadi əlaqələrin dövlət tənzimlənməsinin təkmilləşdirilməsində özünü göstərməlidir.

Tədqiqatlar göstərir ki, Azərbaycanda xarici iqtisadi əlaqələrin modernləşməsi aşağıdakıları əhatə etməlidir:1) Xarici ticarət siyasətinin təkmilləşdirilməsi; 2) Xarici investisiyaların təşviq edilməsi; 3) Xarici ölkələrdə investisiya qoyuluşu; 4) Xarici iqtisadi əlaqələrin digər formalarının inkişafı.

Xarici iqtisadi əlaqələrin inkişafı və dünya iqtisadi sisteminə inteqrasiyası aşağıdakı məsələlərin həllini zəruri edir: 1) milli iqtisadiyyatın mütərəqqi sahələrinin inkişaf etdirilməsi və tədricən dünya standartlarına uyğun idxal-ixrac əməliyyatlarının həyata keçirilməsi, onun dünya təsərrüfat sistemi ilə əlaqələndirilməsi; 2)beynəlxalq təşkilatlar daxilində ölkənin strateji maraqlarının qorunması; 3) gömrük, tarif və valyuta sistemində islahatlar aparılması; 4) emal sənayesi mal-

larının ixracının artırılması; 5) xarici şirkətlər tərəfindən haqsız rəqabətə məruz qalan müəssisələrin qorunması; 6) qeyri-neft sektoruna investisiya qoyuluşunun genişləndirilməsi üçün şəraitin yaradılması; 7) sabit tədiyyə balansının formalaşdırılması; 8) xarici iqtisadi əlaqələri tənzimləyən hüquqi və normativ aktların ÜTT-nin tələblərinə maksimum uyğunlaşdırılması; 9) optimal çevik struktur siyasətinin həyata keçirilməsi; 10) daxili və xarici qiymətlərin səmərəli əlaqələndirilməsi, struktur deformasiya hallarının aradan qaldırılması; 11) respublika regionlarının ixrac potensialının artırılması.

Modernləşmiş iqtisadiyyatın formalaşdırılması üçün insan kapitalının inkişafı zəruri məsələlərdən biridir. Azərbaycanın strateji məqsədi, neft gəlirlərindən cəmiyyətin tərəqqisi və qeyri-neft sektorunun inkişafı üçün istifadə edilməsidir. "Qara qızılın" insan kapitalına çevrilməsi Azərbaycan hökumətinin və cəmiyyətinin əsas vəzifəsi olmalıdır. İnsan kapitalına uzunmüddətli investisiya qoyulması, təhsilin və səhiyyənin inkişafı, əhalinin sosial təminatının yaxşılaşdırılması və həyat səviyyəsinin beynəlxalq standartlara uyğunlaşdırılması zəruridir.

Artıq Azərbaycan iqtisadiyyatı dünya iqtisadiyyatına kifayət qədər inteqrasiya olunub. Onun bazar iqtisadiyyatı statusu əksər ticarət partnyorları, o cümlədən, Avropa Birliyi və ABŞ tərəfindən tanınıb. Azərbaycan beynəlxalq təşkilatlar və inteqrasiya blokları daxilində fəal iştirak edir. Hazırda Azərbaycanın xarici iqtisadi əlaqələr strategiyasının qarşısında duran əsas məsələ - dünya təsərrüfatına inteqrasiyanın səmərələşdirilməsi, ixracın strukturunun təkmilləşdirilməsi, iqtisadi liberallaşma, gömrük sistemində islahatlar və biznes mühitinin yaxşılaşdırılması ilə xarici iqtisadi əlaqələrdə iştirak edən subyektlərin sayının artırılmasına kömək göstərilməsidir. Azərbaycanda açıq tipli bazar iqtisadiyyatı formalaşdırıldığından, xarici iqtisadi əlaqələr sahəsində qarşıya qoyulan məqsədlərə çatılması və vəzifələrin həll edilməsi üçün aşağıdakı tədbirlərin görülməsi zəruridir:

1.Xarici ticarətin sahə və əmtəə strukturunun diversifikasiyası və Azərbaycan müəssisələrinin müasir beynəlxalq ticarət sistemində iştirak mexanizminin təkmilləşdirilməsi. Xarici iqtisadi əlaqələrdə iştirak edən müəssisələrin sayının artması, ixrac edilən əmtəə və xidmətlərin nomenklaturunun genişlənməsi və kiçik biznesin xarici fəaliyyətə qoşulmasına şərait yaratmaq üçün dövlət siyasəti formalaşmalıdır. Burada, həm bütünlükdə ixracın stimullaşdırılması, həm də kiçik bizneslə məşğul olan müəssisələrin rəqabətqabiliyyətliliyinin artırılması baxımından

müvafiq tədbirlər görülməlidir. Xarici ticarətin strukturunun təkmilləşməsi kiçik və orta sahibkarlığın xarici iqtisadi fəaliyyətə cəlb edilmə səviyyəsindən və onların beynəlxalq əmək bölgüsündə iştirakının xarakterindən asılı olacaq. Gələcəkdə Qərb ölkələrində geniş yayılmış françayzinq əməliyyatlarından istifadə etmək mümkündür. Bu əməliyyatın əsas mahiyyəti - böyük firmaların kiçik firmalara müəyyən ödəniş qarşılığında marka və patentlərdən istifadə etmək hüququ verir, zəruri hallarda isə müxtəlif məsləhət xidmətləri göstərir və onlara avadanlıqlar icarəyə verir.

2. İxracla məşğul olan kiçik və orta sahibkarları (KOS) bir arada toplayan Sektorlar üzrə Xarici Ticarət Şirkətlərinin yaradılması. Xarici Ticarət Şirkətləri müxtəlif fəaliyyətlə məşğul olan KOS-ları ixracatda vahid bir təşkilat altında birləşdirən və onları dünya bazarına istiqamətləndirən bir qurumdur. Bu təşkilatların fəaliyyəti aşağıdakı istiqamətlər üzrə olur:

- KOS-lara inzibati və sənədləşmə işlərində, tədris və ixtisasartırma ilə bağlı dəstək verilməsi: burada ayrı-ayrı müəssisələrin ehtiyac duyduğu sahələr üzrə ixtisaslı kadrların hazırlanmasına kömək göstərilməsi nəzərdə tutulur; maliyyə və kredit dəstəyi; KOS-lara ucuz daxili və xarici maliyyə mənbələrinin tapılmasına kömək göstərilməsi; miqdar üstünlükləri: Xarici Ticarət Şirkətləri daxilində birləşən KOS-lar xaricdən gələn böyük həcmli sifarişləri birlikdə yerinə yetirmək imkanına malik olurlar;reklam və tanıtım dəstəkləri;ortaq Ar-Ge fəaliyyətlərinin həyata keçirilməsi.

Qeyd edək ki, 1970-ci ildən sonra Cənubi Koreya, ABŞ, İtaliya, Braziliya və bir çox ölkələr iqtisadi ədəbiyyatlarda Soga Shasa olaraq tanınan Yapon modelini tətbiq etməyə başladılar. Bu model sayəsində İtaliya 1974-ci ildə, Cənubi Koreya 1975-ci ildə, Braziliya 1976-cı ildə və ABŞ 1982-ci ildə yaratdıqları Xarici Ticarət Şirkətlərinin köməyi ilə KOS-ların xarici ticarətdə ixtisaslaşmalarına və möhkəmlənmələrinə şərait yaradıblar və hazırda da bu proses davam etdirilir.

3.Müasir metodlardan istifadə edərək daxili bazarın qorunması.

4.Yüksək texnologiyaya əsaslanan malların ixracının genişləndirilməsi. Qeyd etmək lazımdır ki, əlavə dəyərə malik olan malların ixracının xüsusi çəkisinin artırılması vacib olsa da, mütləq deyil. Dünya bazarının dinamik tələblərinə uyğun olan və uzunmüddətli ixrac edilə biləcək malların ixracı əsas hədəfdir. Son illər innovasiya iqtisadiyyatının inkişafı üçün Azərbaycanda zəruri şərait yetişib.

5. Cənub, Şimal və Qərb istiqamətində, o cümlədən Naxçıvanda Sərhədyanı ticarətin inkişaf etdirilməsi. Qlobal miqyasda dünya qiymətləri ilə aparılan ticarətlə müqayisədə sərhədyanı ticarətin iqtisadi inkişafda rolu daha xarakterikdir. Əvvəla, o, qlobal iqtisadi vəziyyətdən deyil, əsasən qonşu ölkələrin müvafiq regiondakı xüsusiyyətindən asılıdır. Burada qiymətlər dünya qiymətləri ilə deyil, qarşılıqlı razılaşma əsasında müəyyən edilir. İkincisi, sərhədyanı ticarət ölkə iqtisadiyyatında regional və sahələr üzrə struktur dəyişikliklərinə səbəb ola bilər. Üçüncüsü, nəqliyyat xərclərinin aşağı olması, hətta çox da böyük olmayan ticarət əməliyyatlarını sərfəli edir və bu da sərhədyanı rayonlarda kiçik biznesin inkişafını stimullaşdırır. Dördüncüsü, sərhədyanı ticarət dövriyyəsi ölkə miqyası ilə müqayisədə daha diversifikasiyalaşmışdır.

Empirik araşdırmalar göstərir ki, xarici ticarətin liberallaşması sərhədyanı ticarətin inkişafına daha çox təsir göstərir. Sərhədyanı ticarətin inkişafı regionlarda məşğulluq problemini həll etməklə yanaşı əhalinin gəlirlərinin artmasında, regional bazarda əmtəə tələbatının ödənilməsində xüsusi rola malik ola bilər. Ölkələrarası sazişlər və regional inzibati orqanlar arasındakı əməkdaşlıq müqavilələri sərhədyanı ticarətdə mühüm rol oynayır.

6. Azərbaycanda ixracın stimullaşdırılması üçün önəmli məsələlərdən biri - İxrac Bankının yaradılmasıdır. Bu bankın əsas funksiyaları aşağıdakılar ola bilər:

a) İxracla məşğul olan firmaların kreditləşməsi. Azərbaycanda ixracla məşğul olan firmaların əsas problemlərindən biri ucuz maliyyə vəsaitlərinin olmamasıdır.

b) Valyuta məzənnələri opsionunun həyata keçirilməsi. Bu əməliyyat son illər qeyri-sabit valyuta bazarında baş vermiş dalğalanmalardan daha az zərər etməsi üçün firmalara verilən dəstəkdir. Müəyyən komisyon qarşılığında valyuta məzənnəsi qısa müddətə bank ilə razılaşdırılır və müəyyən dövrdən sonra valyuta məzənnəsi ixracatçı müəssisələrin zərəri hesabına dəyişdikdə, xarici valyuta əvvəlcədən razılaşdırılmış məzənnə ilə ixracatçı müəssisədən alınır.

c) Sığorta fəaliyyətinin aparılması. Bu proses firmaların həyata keçirdiyi ixrac əməliyyatlarının tərəfdaş ölkədəki bütün ticari və siyasi risklərdən sığortalanmasını əhatə edir.

7. İxrac fəaliyyəti ilə məşğul olan firmalar və onların istehsal etdikləri mallar barədə informasiyaların müxtəlif dillərdə kataloqunun hazırlanması və internet saytında yerləşdirilməsi. Yerli sahibkarların

beynəlxalq sərgilərdə iştirakını təmin etmək və Azərbaycanda xarici firmaların iştirakı ilə sərgilər (əsasən sənaye avadanlıqları, xammal, material və yarımfabrikatlar üzrə) təşkil etmək xarici ticarəti genişləndirmək üçün ən zəruri məsələlərdəndir. Azərbaycanda bu sahədə müəyyən işlər getsə də, qənaətbəxş deyil. İl ərzində müxtəlif sahələri əks etdirən sərgilərin təşkil edilməsinə baxmayaraq, qeyri-neft sektorunu əhatə edən sərgilərdə aparıcı xarici firmalar iştirak etmir. Adətən qonşu ölkələrin, xüsusilə Türkiyə, İran və Rusiyanın bir neçə firmasının iştirakı ilə kifayətlənməli oluruq. Fikrimizcə, dövlət qeyri-neft sektorunun inkişaf etdirilməsi baxımından dünyanın aparıcı şirkətlərinin istehsal avadanlıqlarının sərgisinin keçirilməsini təmin etməlidir. Bunun üçün potensial daxili istehsal sahələrinin monitorinqi aparılaraq, ehtiyac duyulan avadanlıqlar müəyyən edilməli və bu avadanlıqların dünyadakı istehsalçıları seçilərək onların bu sərgidə iştirakına nail olunmalıdır. Həmin şirkətlərin bu sərgilərdə iştirakını stimullaşdırmaq üçün avadanlıqların gətirilmə xərclərini və nümayəndələrin digər xərclərini dövlət öz üzərinə götürə bilər.

Beynəlxalq və regional bazarlarda yeni satış nöqtələrinin tapılmasına, mövcud olanların daha da genişləndirilməsinə, bu bazarlarda qarşıya çıxan maneələrin araşdırılmasına və bunların ikitərəfli və ya çoxtərəfli razılaşmalar ilə həll edilməsini təmin edə biləcək sistematik bir fəaliyyət planının hazırlanmasına ehtiyac var. İxracat firmalarının dünya bazarında gedən proseslər, konyunktura və tələbatlarda dəyişikliklər barədə informasiya ilə təmin edilməsi vacibdir. Bununla yanaşı, elektron informasiya mübadiləsinin dünya ticarətində əsas rola malik olduğunu nəzərə alaraq, xaricdəki alıcılar və Azərbaycandakı satıcılar arasında davamlı məlumat mübadiləsini həyata keçirəcək bir sistem qurulmalıdır. Bunun üçün hazır məhsul ixrac edən firmalar, onların məhsulları haqqında geniş məlumatları əks etdirən internet saytlarının yaradılması məqsədəuyğundur. Ümumiyyətlə, ixracı stimullaşdırmaq məqsədilə istehsal edilmiş məhsulların keyfiyyətinin artırılması ilə yanaşı, marketinq və bazarlama işinə daha çox diqqət verilməlidir.

**Tədqiqatın əsas məzmunu və nəticələri müəllifin aşağıdakı əsərlərində öz əksini tapmışdır:**


1. Qənbərov F.Ə. Xarici iqtisadi əlaqələr və iqtisadi artım. Monoqrafiya, Bakı: Elm nəşriyyatı, 2012. 448 s.
2. Qənbərov F.Ə. Azərbaycanda İxracın genişləndirilməsinin əsas istiqamətləri. "Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf istiqamətləri". (kollektiv monoqrafiya), Bakı, Elm, 2008. 2 ç.v
3. Qənbərov F.Ə. Qloballaşma şəraitində ölkə iqtisadiyyatında iqtisadi artımın xarici iqtisadi amilləri. Azərbaycam Milli Elmlər Akademiyası, Qloballaşma mühitində milli iqtisadi inkişaf modelin formalaşması problemləri, Kollektiv monoqrafiya Bakı:2010. 3,5 ç.v
4. Ганбаров Ф.А. Великий Шелковый всегда к месту. Экономический Вестник Узбекистана, Ташкент №4/1999. 0,4 ç.v.
5. Ганбаров Ф.А. Основные факторы международной конкурентоспособности стран СНГ. «Белорусская модель социально-экономического устойчивого инновационного развития: формирование и пути реализации. Институт экономики Национальной академии наук Беларуси. Сборник материалов международной научно-практической конференции. Минск 2006. 0,1 ç.v
6. ГанбаровФ.А. СравнительноепреимуществоэкспортастранГУАМ.Ukrainian Academy of foreign Trade, Киев 2007. 0,7 ç.v
7. Ганбаров Ф.А. Проблема экономического роста в странах-экспортерах нефти. Журнал «Проблемы экономики» №1 (14), 2007, Москва. 0,5 ç.v
8. Ганбаров Ф.А. Финансово-налоговые факторы экономического развития предпринимательства в Азербайджане. Министерство образования и науки Российской Федерации. Актуальные проблемы экономики и совершенствования правового регулирования в экономике. Статьи докладов 3-я Международной научно-практической конференции. Часть 2., г. Пятигорск 2009. 0,5 ç.v
9. Ганбаров Ф.А. Иностранный капитал в банковском секторе Азербайджана. Федеральное агентство по образованию санкт-петербургский государственный университет экономики и финансов, Роль финансово-кредитной истемы в реализации приоритетных задач развития экономики, материалы3(14)-й международной научной конференции 18-19 февраля 2010 года, Сборник докладов ТОМ II, Санкт-петербур:2010. 0,2 ç.v.
10. Ганбаров Ф.А. Кризис финансовой глобализации и уроки для Азербайджана. Санкт-петербургский государственный университет экономики и финансов, юбилейний сборник научных трудов к 90-

летию профессора В.С. Торкановского / Под редакцией А.С. Селищева, В.С. Торкановского, Л.П.Давиденко, И.П.Леонтьевой. – СПб.: Изд-во «Инфо-да», 2011. 0,2 ç.v.

11. Kriz sonrası Azerbaycanda Dış Borcların Değerlendirilmesi. Marmara Universiteti, Uluslararası Finans Simpoziyomu 2011, İstanbul 2011. 0,2 ç.v.

12. Ганбаров Ф.А. Проблема диверсификации внешнеэкономических связей в Азербайджане. Воронежский государственныйуниверситет инженерных технологий, журнал "Финансы. Экономика. Стратегия", aprel 2012. 0,7 ç.v.

13. Ганбаров Ф.А. Внешнеэкономические факторы создания экономического роста в Азербайджане. «Наука и бизнес: пути развития» научно-практический журнал. №3(09) 2012, Москва 2012. 0,5 ç.v.

14. Ганбаров Ф.А. Основные направления развития платежного баланса в Азербайджане. «Проблемы современной экономики», Евразийский научно-аналитический журнал. Санкт Петербург №2 2012. 0,6 ç.v.

15. Ганбаров Ф.А. Эффективность политики валютного курса в Азербайджане. МОО «Фонд развития науки и культуры», Журнал «Глобальный научныйпотенциал», № 6(15) 2012. 0,5 ç.v.

16. Ганбаров Ф.А. О конкурентоспособности экономики Азербайджанской Республики. "Экономической вестник Узбекистана", Министерство экономики Республики Узбекистан, №2 2012. 0,5 ç.v.

17. Ганбаров Ф.А. Экономическая интеграция СНГ: двадцать лет спустя. Инвестиции: практика та досвид, науково-практичний журнал. Чорноморський державний университет имени Петра Могили, Киев №11 июнь 2012. 0,5 ç.v.

18. Qənbərov F.Ə. "Azərbaycan və Özbəkistan Respublikaları arasındakı iqtisadi əlaqələrin müasir vəziyyəti." Müasir mərhələdə Azərbaycanda yeni iqtisadi sistemə keçidin qanunauyğunluqları və problemləri /kollektiv monoqrafiya/ Bakı, "Elm" 1998, 0,5 ç.v.

19. Qənbərov F.Ə. Azərbaycanda xarici ticarətin inkişaf problemləri. Azərbaycan və müasir dünya. Azərbaycan Universitetinin Azərbaycan Demokratik Cumğuriyyətinin 80 illiyinə həsr olunmuş I ümumrespublika elmi praktik konfransının tezisləri. Bakı "Azərbaycan Universiteti" nəşriyyatı 1998, 0,1 ç.v.

20. Qənbərov F.Ə. Azərbaycan və Özbəkistan Respublikaları arasındaki iqtisadi əlaqələrin səmərələşdirilməsi yolları. «Müstəqil Azərbaycan Respublikası üçüncü minilliyin birinci yüzilliyində» mövzusunda Elmi-Praktiki Konfransın tezisləri, (AMEA İqtisadiyyat İnstitutu, Bakı Biznes Universiteti), Bakı-2001, 0,3 ç.v.

21. Qənbərov F.Ə. Azərbaycan və Özbəkistan Respublikaları arasındaki iqtisadi əlaqələri. Azərbaycan Elmlər Akademiyası İqtisadiyyat İnstitutu, Xəbərlər jurnalı, №4/1998, 0,3 ç.v.

22. Qənbərov F.Ə. Azərbaycan regional iqtisadi inteqrasiya məkanında. Müasir mərhələdə Azərbaycanın sosial-iqtisadi inkişafının əsas meylləri /məqalələr toplusu/ II buraxılış, AMEA İqtisadiyyat İnstitutu. Bakı, "Elm" 1999, 0,3 ç.v.
23. Qənbərov F.Ə. Özbəkistan Respublikasında aparılan iqtisadi islahatların xüsusiyyətləri. Müasir mərhələdə Azərbaycanın sosial-iqtisadi inkişafının əsas meylləri /məqalələr toplusu/ III buraxılış, AMEA İqtisadiyyat İnstitutu. Bakı, "Elm" 1999, 0,5 ç.v.
24. Qənbərov F.Ə. Azərbaycan və Özbəkistan Respublikaları arasındaki ticarət əlaqələrinin inkişaf etdirilməsi. Audit jurnalı, Bakı, "Biznes Universiteti" 1999/№4, 0,5 ç.v.
25. Qənbərov F.Ə. Azərbaycan və Orta Asiya Respublikaları arasında valyuta-maliyyə əlaqələri. Azərbaycan MEA İqtisadiyyat İnstitutu "Azərbaycan İqtisadiyyatı yüksəliş yolunda" məqalələr toplusu İV buraxılış, Bakı 2003, 0,5 ç.v.
26. Qənbərov F.Ə. Azərbaycan beynəlxalq qloballaşma prosesində. Azərbaycan MEA İqtisadiyyat İnstitutu "Azərbaycan İqtisadiyyatı yüksəliş yolunda" məqalələr toplusu V buraxılış, Bakı 2003, 0,6 ç.v.
27. Qənbərov F.Ə. Real valyuta məzənnəsinin iqtisadi inkişafda rolu. Azərbaycan MEA İqtisadiyyat İnstitutu "Azərbaycan İqtisadiyyatı yüksəliş yolunda" məqalələr toplusu Vİ buraxılış, Bakı 2003, 0,5 ç.v.
28. Qənbərov F.Ə. Azərbaycanda xarici investorların fəaliyyətinin genişləndirilməsinin bəzi problemləri. Azərbaycan Respublikası Auditorlar Palatası, Azərbaycan Respublikasında Sahibkarlığın bəzi problemləri. Elmi praktiki konfransın materialları, Bakı 2003, 0,1 ç.v.
29. Qənbərov F.Ə. Regional İqtisadi İnkişafın bəzi məsələləri. Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan İqtisadçılar İttifaqı, Qafqaz Universiteti. "Qloballaşma prosesində Qafqaz və Orta Asiya" mövzusunda beynəlxalq konfransın materialları. Bakı 2003, 0, 1 ç.v.
30. Qənbərov F.Ə. Azərbaycan Respublikasının maliyyə-valyuta əlaqələrinin əsas istiqamətləri. Azərbaycan MEA İqtisadiyyat İnstitutu "Milli iqtisadiyyatın problemləri" məqalələr toplusu İİİ buraxılış, Bakı:2006, 1,5 ç.v.
31. Qənbərov F.Ə. Azərbaycan İqtisadiyyatının beynəlxalq rəqabətqabiliy-yətliliyi. Azərbaycan Dövlət İqtisad Universiteti. "Milli iqtisadi inkişafın Azərbaycan modeli" beynəlxalq konfransı. Bakı: 2006. 0,4 ç.v.
32. Qənbərov F.Ə. Xarici ticarət və iqtisadi artım. Azərbaycan MEA İqtisadiyyat İnstitutu "Xəbərlər" jurnalı. №4, 2006. 0,6 ç.v.
33. Qənbərov F.Ə. Müasir dünya iqtisadiyyatı və Azərbaycan. Azərbaycan MEA İqtisadiyyat İnstitutu "Milli iqtisadiyyatın problemləri" məqalələr toplusu İV buraxılış, Bakı:2006. 0,5 ç.v.

34. Qənbərov F.Ə. Azərbaycanda iqtisadi artımın əsas problemləri. Azərbaycan MEA İqtisadiyyat İnstitutu "Xəbərlər" jurnalı. №3, 2007. 0,5 ç.v.
35. Qənbərov F.Ə. Beynəlxalq rəqabətqabiliyyətliliyin əsas amilləri və onun yüksəldilməsi yolları. Azərbaycan MEA İqtisadiyyat İnstitutu "Azərbaycan iqtisadiyyatı yeni inkişaf mərhələsində:uğurlar, problemlər, təkliflər" elmi-praktiki konfransın materialları, Bakı:2006. 0,2 ç.v.
36. Qənbərov F.Ə. Beynəlxalq rəqabət gücü göstəriciləri və onların Azərbaycana tətbiqi. Azərbaycan MEA "Xəbərlər" jurnalı. №2, 2007. 0,5 ç.v.
37. Qənbərov F.Ə. İqtisadi azadlıq və iqtisadi artım. İqtisad elmləri: Nəzəriyyə və Praktika. Rüblük nəzəri və elmi-praktiki jurnal, №3-4 2007 . 0,5 ç.v.
38. Qənbərov F.Ə. Azərbaycanda iqtisadi artımın təmin edilməsində enerji effektivliyinin rolu. Bakı Biznes Universiteti, Audit jurnalı №2, 2007. 0,5 ç.v.
39. Qənbərov F.Ə. Keçid dövrü iqtisadi proseslərində insan faktoru. Naxçıvan Dövlət Universitetinin "Elmi əsərlər" jurnalı, 2007. №2 (77), 2007. 0,5 ç.v.
40. Qənbərov F.Ə. ÜTT -yə üzv olmağın Azərbaycan iqtisadiyyatına təsiri mexanizmi. Azərbaycan MEA Naxçıvan Bölməsi, Xəbərlər İctimai və humanitar elmlər seriyası, №3, Naxçıvan 2007. 0,5 ç.v.
41. Qənbərov F.Ə. Azərbaycanda kənd təsərrüfatı və ərzaq mallarının ixracının əsas problemləri. Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun elmi əsərləri, №1, 2007. 0,6 ç.v.
42. Qənbərov F.Ə. Qloballaşma şəraitində iqtisadi açıqlıq səviyyəsi və onun iqtisadi inkişafa təsiri. Qafqaz Universiteti "Qloballaşma Prosesində Qafqaz və Mərkəzi Asiya" İqtisadi və beynəlxalq münasibətlər Konqresinin materialları, Qadqaz Universiteti 2007. 0,5 ç.v.
43. Qənbərov F.Ə. MDB inteqrasiya blokunun səmərəli fəaliyyətinə mane olan əsas amillər. Azərbaycan MEA İqtisadiyyat İnstitutu "Milli iqtisadiyyatın problemləri" məqalələr toplusu İ buraxılış, Bakı: 2007. 0,4 ç.v.
44. Qənbərov F.Ə. İqtisadi artımın əsas göstəricisi olan ÜDM və onun hesablanmasının əsas problemləri. Azərbaycan MEA İqtisadiyyat İnstitutu "Milli iqtisadiyyatın problemləri" məqalələr toplusu İİ buraxılış, Bakı: 2007. 0,5 ç.v.
45. Qənbərov F.Ə. Beynəlxalq turizm gəlirlərinin iqtisadiyyata təsirinin qiymətləndirilməsi. Azərbaycan Respublikası Odlar Yurdu Universitetinin Elmi və Pedoqoji Xəbərləri, hüquq, sosial-ictimai, iqtisadi, filologiya və pedoqoji elmlər seriyası. Bakı: 2007. 0,5 ç.v.
46. Qənbərov F.Ə. İqtisadi artımın əsas amillərinin metodoloji təhlili. Azərbaycan MEA İqtisadiyyat İnstitutu "Milli iqtisadiyyatın problemləri" məqalələr toplusu İV buraxılış, Bakı: 2007. 0,5 ç.v.

47. Qənbərov F.Ə. Xarici ticarət həddi göstəriciləri xarici ticarətin tənzimlənməsi aləti kimi. Azərbaycan MEA İqtisadiyyat İnstitutu “Milli iqtisadiyyatın problemləri” məqalələr toplusu III buraxılış, Bakı: 2007. 0,5 ç.v.
48. Qənbərov F.Ə. Azərbaycanın MDB ölkələri ilə iqtisadi əlaqələrinin valyuta-maliyyə aspektləri. Azərbaycan MEA İqtisadiyyat İnstitutu elmi əsərlər. Bakı, Elm: 2008. 0,6 ç.v.
49. Qənbərov F.Ə. Qloballaşan dünyada Türk dövlətlərinin iqtisadi inteqrasiyası. Qafqaz Universiteti “Qloballaşma Prosesində Qafqaz və Mərkəzi Asiya” İqtisadi və beynəlxalq münasibətlər III Beynəlxalq konqres məqalələr, Qafqaz Universiteti 15-17 oktyabr 2010. 0,8 ç.v.
50. Qənbərov F.Ə. Dünya maliyyə böhranları və onların modelləri. AMEA İqtisadiyyat İnstitutu, “Elmi əsərlər” məqalə toplusu, Bakı: 2010 №3. 0,5 ç.v.
51. Qənbərov F.Ə. Müstəqillik illərində Azərbaycan Respublikasında valyuta-maliyyə əlaqələrinin təkmilləşdirilməsi və inkişafı. Bakı Biznes Universiteti, Audit jurnalı, Bakı: 2011, №3. 0,3 ç.v.
52. Qənbərov F.Ə. Qlobal maliyyə böhranı şəraitində Azərbaycanın bank sektorunun rəqabətqabiliyyətlilyi. Azərbaycan Respublikası Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyası, Türkiyə Cümhuriyyəti Mərmərə Universiteti, Sank-Peterburq Dövlət İqtisadiyyat və Maliyyə Universiteti, "Qlobal maliyyə böhranı və dövlət idarəetmə sistemində antiböhran siyasət:dünya təcrübəsi və Azərbaycan modeli" mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları, Bakı, 04 iyun 2010. 0,2 ç.v.
53. Qənbərov F.Ə. Xarici borcların iqtisadi təhlükəsizlik baxımından qiymətləndirilməsi. Azərbaycanın vergi xəbərləri» jurnalı, Bakı: 2011, №12. 0,6 ç.v.
54. Qənbərov F.Ə. Azərbaycanda iqtisadi artımın əsas mərhələləri və iqtisadi artımın Azərbaycan modeli. AMEA İqtisadiyyat İnstitutu, “Elmi əsərlər” məqalələr toplusu, Bakı: 2011 №2. 0,5 ç.v.
55. Qənbərov F.Ə. Beynəlxalq iqtisadi rəqabətqabiliyyətlilik iqtisadi artımın əsas amili kimi. AMEA İqtisadiyyat İnstitutu, “Elmi əsərlər” məqalələr toplusu, Bakı: 2011 №4. 0,5 ç.v.
56. Qənbərov F.Ə. Təbii ehtiyatlarla zəngin olan ölkələrdə iqtisadi artım modelləri: xarici iqtisadi aspektlər. AMEA-nın Xəbərləri "İqtisadiyyat" Seriyası, Bakı:2011 №3. 0,6 ç.v.
57. Qənbərov F.Ə. Xarici investisiyalar və iqtisadi artım. AMEA Xəbərlər "İQTİSADİYYAT" Seriyası, 2011 №4. 0,6 ç.v.
58. Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyasında xarici investisiya amili. Naxçıvan Dövlət Universitetinin “Elmi əsərlər” İctimai elmlər seriyası, 2012, №2 (47). 0,5 ç.v.
59. Qənbərov F.Ə. Azərbaycanda xarici iqtisadi əlaqələrin modernləşməsi istiqamətləri. Azərbaycan MEA Məruzələr, 2012, №2. 0,4 ç.v.

60. Qənbərov F.Ə. Xarici investisiyalar və iqtisadi artım. AMEA Xəbərlər "İQTİSADİYYAT" Seriyası, №1, 2013 0,6 ç.v
61. Qənbərov F.Ə. Azərbaycanda iqtisadi artımın keyfiyyət dəyişiklikləri: inkişaf ssenariləri. Azərbaycan Respublikası Odlar Yurdu Universitetinin Elmi və Pedoqoji Xəbərləri, hüquq, sosial-ictimai, iqtisadi, filologiya və pedoqoji elmlər seriyası. Bakı: 2013, №36. 0,5 ç.v.
62. Qənbərov F.Ə. Azərbaycanda kənd təsərrüfatı və ərzaq mallarının rəqabət gücü. Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun elmi əsərləri, №1, 2013. 0,6 ç.v.
63. Qənbərov F.Ə. Azərbaycanın xarici iqtisadi əlaqələrinin formalaşmasının əsas istiqamətləri və qiymətləndirilməsi. AMEA İqtisadiyyat İnstitutu, "Elmi əsərlər" məqalələr toplusu, Bakı: 2013 №4. 0,5 ç.v.

**Фуад Алинаги оглы Ганбаров**

**Внешнеэкономические факторы обеспечения экономического роста в Азербайджане в условиях глобализации**

## РЕЗЮМЕ

Диссертационная работа состоит из введения, пяти глав, заключения и списка использованной литературы.

Значимость и актуальность представленной работы, отраженные во введении, заключаются в том, что после приобретения независимости, Азербайджан стремится интегрироваться в мировое хозяйство, расширяя двусторонние и многосторонние экономические связи. Научная оценка места Азербайджана в мировом хозяйстве и ее конкурентоспособности, исследование потенциальных возможностей экономики Азербайджана в контексте глобализации актуальны для повышения ее конкурентоспособности в будущем, обеспечивая ее экономическую безопасность и экономический рост.

Основная цель исследования – разработка научно-методологических инструментов для обеспечения устойчивого экономического роста и разработка научно-практических предложений для повышения эффективности внешнеэкономических связей.

В первой главе рассмотрены теоретико-методологические основы экономического роста, качественные и количественные характеристики его параметров. Проанализированы основные научные теории и методологические подходы, определяющие экономический рост. В этой главе также рассмотрены тренды глобализации и основные характеристики экономического роста, его внутренние и внешние факторы.

Во второй главе, посвященной изучению и оценке роли внешнеэкономических факторов в обеспечении экономического роста в Азербайджане, анализируются основные этапы экономического роста и Азербайджанская модель экономического роста. В этой главе также приводится сравнительный анализ экономики Азербайджана в контексте глобализации, оценка основных направлений внешнеэкономических связей, роль внешней торговли и туризма в развитии экономики Азербайджана.

Третья глава посвящена взаимосвязи конкурентоспособности национальной экономики с экономическим ростом. В этой главе проанализирована конкурентоспособность и экспортный потенциал Азербайджанской экономики. Здесь исследуются потенциальное сотрудничество Азербайджана с ВТО, возможные положительные и отрицательные воздействия на национальную экономику при вхождении в эту организацию.

В четвертой главе рассмотрены воздействия иностранных финансовых источников на экономический рост. В этой главе анализированы роль иностранных инвестиций в обеспечении экономического роста в Азербайджане, вопросы взаимосвязи экономического роста с политикой валютного курса, а также вопросы, связанные с внешним долгом и экономической безопасностью.

В пятой главе проведен диалектический синтез для разработки основных направлений качественного развития экономического роста и усовершенствования внешнеэкономических связей Азербайджана. В этой главе обосновывается Азербайджанская модель развития для повышения эффективности внешнеэкономических связей и конкурентоспособности.

Результаты диссертационного исследования в виде конкретных теоретических выводов и практических рекомендаций отражены в заключении работы.

**Fuad Alinagi oglu Ganbarov**

**The foreign economic factors for providing economical growth in Azerbaijan in globalization**

**Summary**

The dissertation contains introduction, five chapters, conclusion and list of literatures.

The importance and urgency of the investigation are corroborated at background and connected with trying of Azerbaijan to be integrated to the world economy by increasing bilateral and multilateral economic relations. As after independence of Azerbaijan its economical integration to world economy demands to assess the place of Azerbaijan in world economy, its competitiveness, and potentials to increase economical security and to provide economical growth.

Essential propose of the investigation is to develop scientific instruments to provide sustainable economic growth, as well as scientific and practical suggestions to increase effectiveness of foreign economic relations and competitiveness of Azerbaijan in globalization.

In first chapter there have been analyzed some methodology bases of economical growth, its qualitative and quantitative parameters, as well as essential scientific theories and methodologies approaches, determining economical growth. As well as there have been analyzed in this chapter some trends of globalization and main characteristics of economical growth and its external and internal factors.

In second chapter there have been analyzed the role of foreign economical factors to provide economical growth in Azerbaijan, as well as main stages of economical growth and Azerbaijan model on economical growth. There have been realized comparative analyze of Azerbaijan economy in globalization context, there have been provided scientific assessment of foreign economical relations of Azerbaijan, the role of foreign trade and tourism in development of Azerbaijan economy.

In third chapter there has been investigated competitiveness of the national economy, and relationship between competitiveness and economical growth. As well as there have been analyzed export potential of Azerbaijan and some opportunity to increase competitiveness, future relationship between WTO and Azerbaijan, some

negative and positive impacts of the relationship to the national economy.

In fourth chapter there have been investigated the role of foreign investment to provide economical growth in Azerbaijan and their impacts to economical competitiveness. The issues on relations of economical growth and monetary policy, as well as relations of foreign debts and economical security have been investigated in this chapter.

In fifth chapter, there have been carried out dialectical synthesis to develop main trends to increase qualitatively economical growth, and to improve of foreign economical relations of Azerbaijan. As well as there has been proved Azerbaijan economical development model to increase effectiveness foreign economical relations and competitiveness.

Essential outcomes of the dissertation work are given in conclusion as concrete theoretical and practical recommendations.

Kağız formatı 60x84, 1/16
Fiziki çap vərəqi 3,6
Tiraj 100
AMEA-nın mətbəəsində çap olunmuşdur.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ЭКОНОМИКИ**

---

*На правах рукописи*

**ФУАД АЛИНАГИ оглы ГАНБАРОВ**

# ВНЕШНЕЭКОНОМИЧЕСКИЕ ФАКТОРЫ ОБЕСПЕЧЕНИЯ ЭКОНОМИЧЕСКОГО РОСТА В АЗЕРБАЙДЖАНЕ В УСЛОВИЯХ ГЛОБАЛИЗАЦИИ

Специальность: 5307.01 – Экономическая теория
5310.01- Мировая экономика

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени доктора экономических наук

**БАКУ – 2014**